AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyası.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№70 (1340), 28 noyabr - 4 dekabr 2017-ci il

Qəzet 2001-ci ildən çıxır.

A.Q.Abiyevin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında
Azərbaycan Respublikası Prezidentinin

## Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Ağacan Qulam oğlu Abiyev "Şərəf" ordeni ilə təltif edilsin.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 23 noyabr 2017-ci il.*

# Bakının Avropa Yeniyetmələrinin Olimpiya Festivalına ev sahibliyi etməsi ilə bağlı müqavilə imzalanıb

Noyabrın 25-də Xorvatiyanın paytaxtı Zaqrebdə keçirilən Avropa Olimpiya Komitələrinin (AOK) Baş Assambleyasında Bakının 2019-cu ildə Avropa Yeniyetmələrinin Olimpiya Festivalına ev sahibliyi etməsi ilə bağlı imzalanma mərasimi və təqdimat olub.

Müqaviləni Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov, MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, AOK-un prezidenti Janez Koçijançiç və baş katibi Rafael Paqnozzi imzalayıblar.

Tədbirdə Azərbaycanı gənclər və idman naziri Azad Rəhimov, MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, MOK baş katibinin müavini Azər Əliyev, beynəlxalq əlaqələr idarəsinin rəisi Anar Bağırov, marketinq idarəsinin direktoru Mehman Kərimov, Gənclər və İdman Nazirliyinin beynəlxalq əlaqələr şöbəsinin müdiri Namiq Novruzovdan ibarət nümayəndə heyəti təmsil ediblər.

(ardı 3-cü səhifədə)



## Azərbaycan Qılıncoynatma Federasiyası üzvlərinin ümumi yığıncağı və İcraiyyə Komitəsinin iclası keçirilib



Azərbaycan Qılıncoynatma Federasiyasının ümumi yığıncağı keçirilib. Federasiyanın prezidenti Mikayıl Cabbarovun sədrliyi ilə keçirilən tədbirdə gündəlikdə duran əsas məsələ Azərbaycanda qılıncoynatmanın inkişafında gələcək fəaliyyət planının müzakirəsi olub.

Bildirilib ki, bu idman növünün inkişafı üçün bir sıra addımlar atılıb. Ötən həftə Azərbaycan Texniki Universitetinin idman sarayında yeni qılıncoynatma zalı idmançıların istifadəsinə verilib.

Yığıncaqda idman məktəblərində qılıncoynatma idman növünün yeni bölməsinin açılması, ümumtəhsil məktəblərində dərsdənkənar vaxtlarda qılıncoynatma qruplarının təşkilinə dair şəraitin yaradılması, yığma komandanın və kütləvi idman üçün müvafiq ləvazimatların sifariş olunması və digər məsələlər müzakirə olunub. Daha sonra federasiyanın yeni vitse-prezidentlərinin və baş katibinin seçkisi keçirilib. Fikrət Zeynalov, Fərhad Kasimov vitse-prezident, Vasif Məmmədov baş katib seçiliblər.

Eyni zamanda, federasiyanın İcraiyyə Komitəsinin yeni tərkibi yığıncaq tərəfindən təsdiqlənib. Mikayıl Cabbarov, Fikrət Zeynalov, Fərhad Kasimov, Vasif Məmmədov, Sadiq Sadiqov, Yusif Hüseynov və Balaş Qasımov komitənin tərkibində yer alıblar.

Azərbaycan Qılıncoynatma Federasiyası İcraiyyə Komitəsinin iclası keçirilib. Komitənin qərarı ilə Çingiz Mustafayev baş məşqçi təyin edilib.

## "Olimpiya dünyası" - idmanımızın aynası

Səh. 2

## Ağacan Abiyev:
"Elm və idmanı heç vaxt biri-birindən ayırmamışam"

Səh. 4

## Milli Gimnastika Arenasında 4 növ üzrə yarışlar keçirilib

Səh. 3

MOK-un vitse-prezidenti Xəzər İsayev Türkiyədə "Fair Play Dostluq Nişanı" ilə təltif edilib

Səh. 3

Yunan-Roma güləşçiləri Tehranda birinci oldular

Səh. 3

Veloyürüşçülər "Qadınlara və qızlara qarşı zorakılığa son!" dedilər

Səh. 3

"Qabala Open" beynəlxalq turniri başa çatıb

Səh. 6

Qədim kəndin müasir tarixi

Səh. 6

Şəhər birinciliyi gərgin mübarizə ilə yadda qalıb

Səh. 6

olimpnews.az - xəbərin dəqiq ünvanı




# Tokioda yeni idman obyektinin açılışı olub

Tokionun yaxınlığında yerləşən Tofu şəhərində 2020-ci ildə keçiriləcək Olimpiya və Paralimpiya Oyunları üçün nəzərdə tutulan yeni idman obyektinin açılışı keçirilib.

Mərasimdə iştirak edən Tokionun qubernatoru Yurike Koike bu mərkəzin 2020-ci il Oyunlarına hazırlıq çərçivəsində açılan ilk yeni idman obyekti olduğunu deyib.

Yeni mərkəzdə Olimpiya Oyunları zamanı badminton, qılıncoynatma, müasir beşnövçülük, Paralimpiya oyunları zamanı isə təkərli kürsüdə basketbol yarışlarının keçirilməsi nəzərdə tutulur.

İdman kompleksinin ümumi tamaşaçı tutumu 10 min nəfərə bərabərdir. Burada, həmçinin, daxili hovuz və döyüş idman növləri üçün kiçik ölçülü manej də var. Mərkəzdən, eyni zamanda, müxtəlif sərgilərin və konsertlərin keçirilməsi üçün də istifadə ediləcək.

## Anons

Növbəti sayımızda

*Mobil İsmayılov*

### Həmin o Eysebio və yaxud çöldə bitən çiçək

... O, çöldə bitən çiçək olmuşdu. Hamının ayaq saxlayıb baxdığı nadir çöl çiçəyi. Bu cür çiçəklərə insanların qulluq etməsinə ehtiyac qalmır. Təbiətin özü belə çiçəklərin qayğısını, nazını çəkir... İnsanlara yalnız çöl çiçəklərinə toxunmamaq qalır. Bir də qorumaq. O, hər şeyi özü öyrəndi: oynamağı, çalışmağı. Elə özü də məşhurlaşdı... Mozambikdən gələn "Qara inci" kimi...



## Hakim haqsızlığı "Qarabağ"ın planlarını pozdu



Səh. 7

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

## "Ustad dərsləri uşaqların psixologiyasına təsir edir, onların fərdi düşünmək qabiliyyətini artırır"

Səh. 5

***Azərbaycanda idman və Olimpiya Hərəkatı öz inkişaf və yüksəliş dövrünü yaşayır. Ölkəmizdə güclü idmançı nəslinin yetişməsi, maddi-texniki bazanın yaradılması, mötəbər beynəlxalq yarışların keçirilməsi bu sahəyə dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan xəbər verir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan idman siyasəti Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İlham Əliyev 1997-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra ölkə idmanı yeni inkişaf mərhələsinə qədəm qoydu. İdmanın və Olimpiya Hərəkatının sürətli inkişafı, bədən tərbiyəsinin kütləviləşməsi istiqamətində ölkə rəhbərliyinin həyata keçirdiyi məqsədyönlü tədbirlər bu gün öz bəhrəsini verməkdədir. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində paytaxt və bölgələrdə Olimpiya idman komplekslərinin, idman qurğularının, zalların istifadəyə verilməsi, idmançılarımızın müxtəlif beynəlxalq yarışlarda uğurlu nəticələr qazanması Azərbaycanın bu sahədə də yüksək inkişafından xəbər verir. Beynəlxalq idman qurumları rəhbərlərinin ölkəmizə mütəmadi səfərləri, respublikamızın mötəbər idman tədbirlərinə uğurla ev sahibliyi etməsi Azərbaycanın idman ölkəsi olduğunu bir daha sübut edir.***

# "Olimpiya dünyası" - idmanımızın aynası

Milli Olimpiya Komitəsinin rəsmi mətbuat orqanı olan "Olimpiya dünyası" qəzetinin bu il 16 yaşı tamam olur. Qəzet 2001-ci il noyabrın ayının 27-də nəşrə başlayıb. İlk gündən öz səhifələrində ölkə idmanı, Olimpiya Hərəkatı və Olimpiya ideallarının təbliğinə geniş yer verən "Olimpiya dünyası" idman aləmində, xüsusilə də Azərbaycan idmanında cərəyan edən bütün yenilikləri oxuculara çatdırmağı özünün başlıca vəzifəsi hesab edir. İdman mətbuatı ailəsində özünəməxsus mövqeyi olan "Olimpiya dünyası" qəzeti bu illər ərzində sevilən nəşrlərdən birinə çevrilib. Ötən müddət ərzində qəzetimiz öz səhifələrində dünyada və ölkədə baş verən mühüm idman hadisələrini, yeniliklərini müntəzəm və operativ işıqlandırmaqla, qeyd etdiyimiz kimi, artıq 16 ildir ki, təmsilçilərimizin çıxış etdikləri yarışlar, onların əldə etdikləri uğurlar barəsində operativ xəbərlərlə oxucularımızın görüşünə gəlir.



Şübhəsiz ki, idmanın inkişafının, kütləviləşməsinin təbliği sahəsində idman mətbuatının rolu danılmazdır. Hər hansı sahədə əldə edilən uğur təbliğat işinin keyfiyyəti və səviyyəsindən də asılıdır. Geniş auditoriya kütləsi toplamaq üçün, ilk növbədə, oxucu zövqünü və tələbatını təmin etmək lazımdır. Müasir oxucu çoxsaylı informasiya ilə yanaşı, ölkə idmanındakı yenilikləri də daim izləmək istəyir. Bu baxımdan, qəzetimizin əsas məqsədi ölkədə Olimpiya Hərəkatının genişlənməsi, idmanın inkişafı sahəsində həyata keçirilən tədbirlər barədə operativ məlumatlar vermək, idmansevərləri, idmançıları və idman mütəxəssislərini lazımi informasiya ilə təmin etməkdir. "Olimpiya dünyası" qəzetini digər idman nəşrlərindən fərqləndirən başlıca xüsusiyyət onun bütün idman növlərini diqqətdə saxlamasıdır.

"Olimpiya dünyası" fəaliyyət göstərdiyi 16 il ərzində idman ictimaiyyətinin nümayəndələri ilə yanaşı, oxucularla da sıx əlaqələr yaratmağa nail olub. Əməkdaşlarımızın apardığı ənənəvi sorğularda ölkə idmanı və idmançılarımızın müxtəlif miqyaslı yarışlardakı çıxışları haqqında fikirləri öyrənilir.

"Olimpiya dünyası" oxucuların idman haqqında biliklərini yoxlamaq və artırmaq məqsədilə tez-tez maraqlı müsabiqələr və viktorinalar təşkil edir. Qəzetimizin əsas məqsədi idmanın inkişafını nəinki Azərbaycanda, hətta ölkəmizin hüdudlarından kənarda da oxucularımıza hərtərəfli çatdırmaqdır.

"Olimpiya dünyası"nın səhifələrində müxtəlif rubrikalar altında dərc olunan yazılar oxucularımızda maraq oyadır. Oxucular idman ictimaiyyətinin tanınmış nümayəndələri, Olimpiya, Avropa və dünya çempionlarının idmandakı uğurları və şəxsi həyatları haqqında maraqlı müsahibələrlə tanış olmaq imkanı əldə edirlər. Müxtəlif mövzuları əhatə edən "Mütəxəssis rəyi", "Sənətçi idman, idmançı sənət haqqında", "Sağlamlıq resepti-idman", "İdmançı ailəsi", "İdmandan kənar", "İdmançı menyüsü", "Ali məktəblərin idman həyatı", "İdman klublarında", "Bölgə idmanı", "Küncdən zərbə", "İdman ulduzları", "Gənclər və idman", "Qadın və idman", "Musiqi və idman" və başqa bu kimi rubrikalarımız oxucular tərəfindən maraqla qarşılanır.



16 illik fəaliyyətimiz dövründə Afina-2004, Pekin-2008, London-2012, Rio-2016 Yay Olimpiya Oyunları, Sinqapur-2010, Nankin-2014 Yeniyetmələrin Yay Olimpiya Oyunları, Avropa Yeniyetmələrinin Olimpiya Festivalları, I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları və bir çox mötəbər beynəlxalq yarışlardan birbaşa və operativ məlumatlar verilib. Olimpiya Xartiyasına, Olimpiya ideallarına, Olimpiya Hərəkatının Azərbaycanda genişlənməsinə xidmət edən "Olimpiya dünyası" qəzeti Olimpiya Oyunlarının da aynasına çevrilib. Bu möhtəşəm idman tədbirlərində "Olimpiya dünyası"nın işi digər mətbu orqanlarının fəaliyyətindən xüsusilə fərqlənib. Bu yarışlarda tarix yazan idmançılarımız həyəcanlı anların yaşandığı idman arenalarında ilk müsahibələrini məhz "Olimpiya dünyası"na veriblər. Qəzetimiz Olimpiya yığmamızın dünyanın ən mötəbər yarışlarına hazırlığından, onların olimpiadada iştirakından geniş şərhlər hazırlayıb. Atletlərimizlə Afina, Pekin, London, Rio-de Janeyro və Sinqapur, Nankin və digər yerlərdə yaradılan canlı telefon bağlantıları materialların daha geniş, daha ətraflı və oxunaqlı olmasına zəmin yaradıb. Artıq Afina-2004, Pekin-2008, London 2012, Rio-2016, eləcə də Sinqapur-2010, Nankin-2014 Olimpiya Oyunları, I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları tarixə çevrilib. Təmsilçilərimiz adıçəkilən yarışlarda parlaq qələbələri ilə idmanımızın növbəti şanlı səhifəsini yazıblar. Olimpiya həyəcanının oxucuların və tarixin yaddaşına köçürülməsində qəzetimizin də xidmətinin olması bizi sevindirir.

"Olimpiya dünyası"nın fəaliyyəti müvafiq təşkilat və qurumlar tərəfindən də yüksək qiymətləndirilib. Belə ki, Azərbaycan İdman Jurnalistləri Assosiasiyası (AİJA) tərəfindən qəzetimiz dəfələrlə qəzet və jurnallar arasında "İlin ən yaxşı idman nəşri" nominasiyasına layiq görülüb. Qəzetimizin əməkdaşları müxtəlif illərdə AİJA tərəfindən "İlin idman jurnalisti" nominasiyasında birinci olublar. 2004-cü ildə "Olimpiya dünyası" qəzetinin baş redaktoru Gənclər, İdman və Turizm Nazirliyi tərəfindən "İlin ən yaxşı idman jurnalisti" nominasiyasında birinci olub.

Beynəlxalq idman təşkilatlarının da diqqət mərkəzində olan "Olimpiya dünyası" İspaniyanın nüfuzlu "Aktualidad" jurnalının təsis etdiyi "Nüfuz və keyfiyyətə görə-Aktualidad-XXI" adlı beynəlxalq mükafata layiq görülüb. İdmanın təbliği sahəsindəki fəaliyyətinə görə Beynəlxalq Gimnastika Federasiyasının xüsusi diplomu ilə təltif edilib.

AFFA, Azərbaycan Gimnastika Federasiyası, Azərbaycan Voleybol Federasiyası, Azərbaycan Taekvondo Federasiyası, Azərbaycan Güləş Federasiyası və bir çox digər idman qurumları tərəfindən dəfələrlə diplom və mükafatlara layiq görülüb.

"Olimpiya dünyası" qəzeti idmanın təbliği ilə yanaşı, idman tədbirlərinin, müxtəlif layihələrin həyata keçirilməsinə xüsusi önəm verir. İndiyədək qəzetimiz bir sıra ölkədaxili və beynəlxalq yarışların, mədəniyyət tədbirlərinin təşkilatçısı olub. Kütləvi informasiya vasitələrinin nümayəndələri arasında əməkdaşlıq, yaradıcılıq əlaqələrini daha da möhkəmləndirmək üçün qəzetimizin təşkilatçılığı "KİV-2003" futzal turnirində kütləvi informasiya vasitələrinin 14 komandası qüvvəsini sınayıb. "Olimpiya dünyası"nın 2004-cü ildə jurnalistlər arasında ən güclü şahmatçını aşkar etmək üçün təşkil etdiyi yarışlar da böyük maraqla qarşılanıb. Nəşrimiz bölgələrdə də bir sıra tədbirlər həyata keçirib. "Olimpiya dünyası"nın Gəncədə təşkil etdiyi karate-do üzrə "Gəncə kuboku" beynəlxalq turniri də belə tədbirlərdəndir. 2011-ci il oktyabrın 23-də "Olimpiya dünyası" qəzetinin təşkilatçılığı ilə jurnalistlərlə "Neftçi"nin veteran futbolçuları arasında yoldaşlıq görüşü keçirilib.

İdman mövzusunda karikaturalara maraq həmişə böyük olub. Dünyada idman çox inkişaf etdiyindən karikatura ustaları dəfələrlə bu mövzuya müraciət edir, öz ustalıqlarından istifadə edərək gözəl nümunələr yaradırlar. Ölkəmizdə də karikaturaçılar idman mövzusuna müraciət edirlər. "Olimpiya dünyası" qəzeti karikaturaçılarda idman sahəsinə marağı daha da artırmaq məqsədilə Beynəlxalq Karikatura Müsabiqəsi təşkil edib. Nəşrimiz Olimpiya Hərəkatının təbliği üçün 2002-ci ildə təşkil etdiyi karikatura müsabiqəsinin hüdudlarını daha da genişləndirərək I Bakı Beynəlxalq Karikatura Müsabiqəsini yüksək səviyyədə keçirib. Bu müsabiqədə 25 ölkədən 70 rəssam bacarığını nümayiş etdirib.



2006-cı ildə qəzetimizin təşkilatçılığı ilə keçirilən II Bakı Beynəlxalq Karikatura Müsabiqəsində isə bütün qitələri təmsil edən 40 ölkədən 163 rəssam 500 karikatura ilə iştirak edib. Qəzetimiz "Ən yaxşı idman fotoşəkili" və "Ən yaxşı idman yazısı" adlı müsabiqələri də uğurla keçirib.

"Olimpiya dünyası" qəzetinin 5 illik yubileyi ərəfəsində - 2006-cı ildə Yetkinlik Yaşına Çatmayanların Tərbiyə Müəssisəsində idman tədbiri keçirilib. Burada stolüstü tennis üzrə yarış təşkil olunmuş və bu yarışın qaliblərinə MOK tərəfindən diplomlar və idman kostyumları verilmişdir. Növbəti tədbir 2007-ci il martın 5-də "Olimpiya dünyası" ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə 4 saylı Cəzaçəkmə Müəssisəsində təşkil edilib. 8 Mart-Beynəlxalq Qadınlar Günü ərəfəsində belə bir tədbirin keçirilməsində əsas məqsəd azadlıqdan məhrumetmə ilə bağlı yaranmış gərginliyi aradan qaldırmaq, məhbusların psixoloji durumunu sabit saxlamaq və onların asudə vaxtının maraqlı və səmərəli təşkilinə kömək göstərmək idi. Cəzaçəkmə Müəssisəsində voleybol üzrə yarış keçirilmiş, bu yarışlara tanınmış voleybolçu Alla Həsənova hakimlik etmiş, qaliblərə və daha əlli məhbus qadına hədiyyələr təqdim olunmuşdur. Belə tədbirlər zamanı Olimpiya, dünya və Avropa çempionları ilə məhbusların görüşü keçirilmiş, Milli Olimpiya Komitəsi tərəfindən Penitensiar Xidmətin cəzaçəkmə müəssisələrinin kitabxanalarına MOK-un nəşrlərindən nümunələr və idman zallarına idman velosipedi və ştanq verilmişdir.

"Olimpiya dünyası" qəzetinin 16 il ərzindəki ən böyük uğurlarından biri də, ölkədə idman jurnalistlərinin yetişməsi sahəsində fəaliyyət göstərməsidir. Belə ki, ali təhsil ocaqlarının jurnalistika və digər fakültələrində təhsil alan, idmana maraq göstərən və bu sahənin təbliği ilə məşğul olmaq istəyən perspektivli gənclər redaksiyaya işə dəvət olunurlar. Ötən illər ərzində "Olimpiya dünyası"nda onlarla gənc idman jurnalisti yetişib. Onlar ali məktəblərdə təhsillərini davam etdirməklə yanaşı, həm də idman jurnalistikasının sirlərinə yiyələnib və təcrübə əldə ediblər. Hazırda onlar ölkəmizin müxtəlif KİV-lərində idman jurnalisti kimi çalışırlar. Bu təcrübə indi də davam edir. İdman sahəsini yaxşı bilən, yaradıcı və zəngin təcrübəyə malik idman jurnalistlərinin yetişməsi üçün qəzetin kollektivi öz səy və bacarığını əsirgəmir.

Azərbaycanda idmana dövlət səviyyəsində göstərilən diqqət və qayğının nəticəsi olaraq, ölkədə idmanın inkişafını, Olimpiya Hərəkatının genişlənməsini, maddi-texniki bazanın sürətlə möhkəmlənməsini, atletlərimizin beynəlxalq səviyyəli uğurlarını daim diqqət mərkəzində saxlayan və təbliğ edən "Olimpiya dünyası" qəzeti geniş oxucu kütləsinə malikdir.

Böyük məsuliyyət tələb edən qəzet işi kollektiv əməyin məhsuludur. Redaksiyamızda idmana və jurnalistikaya qəlbən bağlı mehriban və işgüzar yaradıcı kollektiv formalaşıb. "Olimpiya dünyası" qəzetinin peşəkar kollektivi və qəzetimizlə əməkdaşlıq edən yaradıcı insanların sayəsində oxuculara maraqlı yazılar təqdim olunur. Başqa sözlə desək, idman, olimpizm, sağlam həyat tərzinin yüksək səviyyədə təbliği hər bir əməkdaşımızın əsas məqsədidir. Bu gün biz 16 illik fəaliyyətimizdən qürurla danışa bilərik. Çoxsaylı oxucuların zövqünü oxşamaq, onları maraqlandıran, narahat edən məsələlərdən söz açmaq, bir sözlə, oxucuların inandığı, etibar etdiyi, hər sayını səbirsizliklə gözlədiyi mətbuat orqanı olmaqla qazanılan etimadı qoruyub saxlamağa çalışırıq.



BİLGİ
GÜNLÜK SİYASİ BAĞIMSIZ HABER GAZETESİ
YIL:6 SAYI:1673 TARİH: 6 KASIM 2009 CUMA FİYATI: 30 KR TEL: 514 14 51 - 514 20 07 - MERZİFON e-mail: bilgigazetesi@hotmail.com bilalguley@hotmail.com

"Kolay Yolla Kazanılan Başarıyı Korumak Çok Zordur"

Merzifonspor Kulübü Halter Antrenörü Azerbaycanlı Üzeyir Hacıyev memleketi Azerbaycan'da Merzifon'u anlattı.

OLİMPİYA DÜNYASI

"Asan yolla qazanılan uğuru qorumaq çox çətindir"

# Bakının Avropa Yeniyetmələrinin Olimpiya Festivalına ev sahibliyi etməsi ilə bağlı müqavilə imzalanıb

*(əvvəli 1-ci səhifədə)*

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Baş Assambleyada çıxış edən Azad Rəhimov birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, 42-ci Ümumdünya Şahmat Olimpiadası, Formula-1 yarışı və digər mötəbər idman tədbirlərinə yüksək səviyyədə ev sahibliyi edən Azərbaycanın 2019-cu ildə Avropa Yeniyetmələrinin Olimpiya Festivalını da ən yüksək səviyyədə keçirəcəyinə əminliyini bildirib.

Olimpiya hərəkatının gənclərin bir araya gəlməsində, onların sağlam həyat tərzi sürmələrində, arzuları, gələcək amalları uğrunda əminliklə mübarizə aparmalarında müstəsna rol oynadığını diqqətə çatdıran Azad Rəhimov deyib: “Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev ölkəmizdə idmanın inkişafına, bu sahədə infrastrukturun dünya standartlarına cavab verməsinə, yeni idman obyektlərinin inşasına, idmançılarımızın həyat şəraitinin yaxşılaşdırılmasına daim xüsusi diqqət və qayğı göstərir. Məhz bunun bariz nümunəsi olaraq Azərbaycan idmançıları dünyanın müxtəlif ölkələrində keçirilən idman yarışlarında bayrağımızı ən yüksək zirvələrə qaldırmaqla, ölkəmizin adını ucaldır, eyni zamanda, idman siyasətinin düzgün və uğurla aparılmasını əyani sübut edirlər”.

Baş Assambleya çərçivəsində Gənclər və İdman Nazirliyinin beynəlxalq əlaqələr şöbəsinin müdiri Namiq Novruzov 2019-cu ildə Azərbaycanda keçiriləcək Avropa Yeniyetmələrinin Olimpiya Festivalına dair təqdimatla çıxış edib. Təqdimatda festivalın proqramına daxil edilən idman yarışlarının sayı, növləri, onların keçiriləcəyi məkanlar, atletlərin və rəsmilərin sayı, idmançıların qalacaqları yerlər və digər vacib məsələlərlə bağlı ətraflı məlumat verib.

Xatırladaq ki, noyabrın 23-25-də AOK-un İcraiyyə Komitəsinin iclası və 46-cı Baş Assambleyası keçirilib.

İclasda 2019-cu ildə Minskdə keçiriləcək II Avropa Oyunlarına hazırlıq məsələləri ilə bağlı Təşkilat Komitəsinin hesabatı dinlənilib. Həmçinin “Pyonçanq-2018”, “Pekin-2022” Qış, “Tokio-2020” və “Paris-2024” Yay Olimpiya oyunlarının, Avropa Yeniyetmələrinin Olimpiya Festivalının 2017-ci ildə Türkiyədə və Macarıstanda keçirilmiş qış və yay festivallarının Təşkilat Komitələrinin hesabat məruzələri dinlənilib.

Baş Assambleya çərçivəsində AOK-un İcraiyyə Komitəsinin üzvlüyünə və rəhbərliyinə növbəti dörd illik müddət üçün seçkilər keçirilib. Janez Koçijançiç AOK-un prezidenti, Nels Niqard və Andre Bolhuis vitse-prezident, Rafael Paqnozzi baş katib, Kikis Lazarides xəzinədar vəzifələrinə seçiliblər.

# *MOK-un vitse-prezidenti Xəzər İsayev Türkiyədə “Fair Play Dostluq Nişanı” ilə təltif edilib*

Brüsseldə “Dünya Ədalətli Oyunlar Mükafatları-2016”nın, İstanbulda isə “Türkiyə Ədalətli Oyunlar Mükafatları-2016”nın təqdimetmə mərasimləri keçirilib.

Hər iki tədbirdə ölkəmizi Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti, Azərbaycan Ədalətli Oyunlar Komissiyasının sədri Xəzər İsayev təmsil edib.

Xəzər İsayev Türkiyə Ədalətli Oyunlar Komissiyasının İcraiyyə Komitəsi tərəfindən Türkiyə ilə Azərbaycan arasında ədalətli oyunlar sahəsində əməkdaşlığın inkişafı və gücləndirilməsindəki xidmətlərinə görə “Fair Play Dostluq Nişanı” ilə təltif edilib.

Qeyd edək ki, Azərbaycan Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyası 1997-ci ildə yaradılıb. 2000-ci ildən etibarən bu təşkilata Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayev rəhbərlik edir. Komissiya Avropa və Beynəlxalq Ədalətli Oyunlar Hərəkatının fəal üzvlərindəndir.

## *Gimnastika*

# Milli Gimnastika Arenasında 4 növ üzrə yarışlar keçirilib




Noyabrın 23-26-da Milli Gimnastika Arenasında gimnastikanın 4 növü üzrə birgə yarışlar keçirilib. Ölkə gimnastları batut və tambling üzrə Azərbaycan və Bakı çempionatı, bədii gimnastika üzrə Bakı birinciliyi, həmçinin aerobika gimnastikası üzrə açıq Azərbaycan və Bakı çempionatında qüvvələrini sınayıblar.

Yarışların ilk günündə tamblinqçilər yarışıblar. Sonrakı iki gündə meydançaya aerobika təmsilçiləri və bədii gimnastlar çıxıblar. Turnirin son günündə isə bədii gimnastlarla yanaşı, batutçular da öz aralarında ən güclüləri müəyyənləşdiriblər.

Qeyd edək ki, aerobika gimnastikası üzrə açıq Azərbaycan çempionatında yerli gimnastlarımızla yanaşı, Estoniya, Bolqarıstan, Almaniya, Macarıstan və Rusiyadan da idmançılar iştirak ediblər. Onlar fərdi, qarışıq cütlük, üçlük və qrup proqramlarında beş yaş kateqoriyası (2009-2010-cu, 2006-2008-ci, 2003-2005-ci, 2000-2002-ci, 1999-cu il təvəllüdlülər və daha yuxarı yaşlılar) üzrə mübarizə aparıblar. Yarışın güclüləri medalla mükafatlandırılıblar.

Milli Gimnastika Arenası dekabrın 6-7-də isə aerobika gimnastikası üzrə Azərbaycan və Bakı birinciliyinə ev sahibliyi edəcək.

## *Güləş*

# Yunan-Roma güləşçiləri Tehranda birinci olublar



İran İslam Respublikasının paytaxtı Tehranda kiçik yaşlı yeniyetmə güləşçilər arasında “Day of children” beynəxalq turniri başa çatıb. Turnirdə sərbəst və yunan-Roma güləşi üzrə kiçik yaşlı yeniyetmələrdən ibarət yığma komandalarımız da iştirak ediblər. Yunan-Roma güləşçiləri yarışı qızıl, sərbəst güləşçilər isə gümüş medalla başa vurublar.

Sərbəst güləş yarışlarında Azərbaycan komandası İranın 4 komandası, Rusiya, Gürcüstan, İraq, Belarus, Qırğızıstan və Ermənistan komandaları ilə mübarizə aparıb. Dörd qrup üzrə keçirilən yarışda yığmamız İran və Ermənistan komandaları ilə qarşılaşıb. Hər iki görüşü qələbə ilə başa vuran güləşçilərimiz yarımfinalda Ukrayna yığmasını məğlub edib. Həlledici görüşdə komandamız digər İran komandası ilə qarşılaşıb. Komandamız yarışdan gümüş medalla ayrılıb.

Məşqçilər İslam Cəfərov və Fuad Əliyevin rəhbərliyi altında yarışda iştirak edən yunan-Roma yığmamız İranın 4 komandası, Ukrayna, İraq, Qazaxıstan, Moldova, Gürcüstan və Ermənistan komandaları ilə mübarizə aparıb. Dörd qrup üzrə keçirilən yarışda komandamız əvvəlcə İran, Qazaxıstan yığmasını mübarizədən kənarlaşdırıb. Yarımfinalda Moldova güləşçilərinə qalib gələn idmançılarımız həlledici görüşdə Ukrayna komandasına qalib gəlib.

Görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Xəzər Allahverdiyev təmsil edib.

## *Cüdo*

### Bakı çempionatına yekun vurulub

“Sərhədçi” İdman Olimpiya Mərkəzində keçirilən kişilər və qadınlar arasında cüdo üzrə Bakı çempionatına yekun vurulub. Çempionatda 24 klubdan 219 kişi və 23 qadın cüdoçu medallar uğrunda mübarizə aparıb.

İki gün davam edən yarışın sonuncu günündə kişi cüdoçular arasında 5 çəki dərəcəsində qaliblərin adlarına aydınlıq gəlib.

Azərbaycan Cüdo Federasiyası, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə keçirilən turnirdə Kərim Abdullayev (73 kq), İsmayıl Priyev (81 kq), Qurban Qurbanov (90 kq), Cəfər Əkbərli (100 kq) və Camal Feyziyev (100 kq-dan yuxarı) çempion olublar.

Paytaxt çempionatının qalib və mükafatçılarına medal və diplomlar təqdim olunub. Yarışda yaxşı nəticə göstərən cüdoçular gələn ay keçiriləcək Azərbaycan çempionatında mübarizə aparacaqlar.

## *Universal döyüş*

# Peşəkarlar arasında beynəlxalq turnir

Noyabrın 26-da ölkəmizdə universal döyüş üzrə peşəkarlar arasında beynəlxalq turnir keçirilib. Azərbaycan Universal Döyüş Federasiyasının təşkilatçılığı, “Kəhriz su” şirkətinin dəstəyi ilə keçirilən yarışda Azərbaycanla yanaşı, İran, Rusiya, Gürcüstan idmançıları da reytinq döyüşlərində qüvvələrini sınayıblar. Döyüşlərdən əvvəl turnirlə bağlı mətbuat konfransı keçirilib. Mətbuat konfransında Azərbaycan Universal Döyüş Federasiyasının prezidenti Azər Həsənov, universal döyüş üzrə peşəkarlar liqasının sədri, “Qartal” PİK-in direktoru Yaqub İbrahimov və qonaq ölkələrin nümayəndələri iştirak ediblər. Azər Həsənov bu il peşəkarlar arasında ilk ölkə çempionatının təşkil olunduğunu və bu sahənin inkişafı istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb. O qeyd edbi ki, federasiyanın əsas məqsədi gələcəkdə bu cür yarışları ənənəvi olaraq keçirməkdir. Yaqub İbrahimov idmançıların bu yarışlara uzun müddətdir ki, hazırlaşdıqlarını bildirib. Daha sonra yarışlara start verilib. Gərgin keçən qarşılaşmalardan sonra qaliblər müəyyənləşib. Elnur Şərəfli (50 kq), Babək Qəmbərov (55 kq), Razdak Əliyev (60 kq), Rusani Əliyev (70 kq), İlkin Bədirxanov (75 kq), Fərid Mirzəbəyov (80 kq), Məhəmməd Mohsen (95 kq) qalib adını qazanıblar. K-1 versiyası üzrə keçirilən “gecənin döyüşləri” də tamaşaçılar tərəfindən böyük coşqu ilə qarşılanıb. Bu döyüşlərdə Cavidan Cəfərli (54 kq) və Rafət Əsədov (+ 95 kq) rəqiblərinə böyük üstünlüklə qalib gəliblər. Tədbirin yekununda “Qartal” Peşəkar İdman Klubunun universal döyüş idman növü üzrə peşəkarlar arasında təşkil etdiyi turnirə görə göstərdiyi dəstəyə görə “Olimpiya dünyası” qəzeti də diplomla təltif edilib.



## *Basketbol*

# *Liderlərdən inamlı qələbə*

Noyabrın 25-də Azərbaycan Texniki Univetsitetinin idman zalında kişilər arasında basketbol üzrə XXV ölkə çempionatında üçüncü turun oyunları keçirilib. Maraqlı mübarizə şəraitində keçən oyunda ALOV komandası - “80”-lərdən güclü olub - 56:93. Günün ikinci qarşılaşmasında U-16 komandası AZTOP-a böyük hesabla məğlub olub. Görüş AZTOP komandasının 96:29 hesablı qələbəsi ilə başa çatıb. Turun son qarşılaşmasında isə NTD basketbolçuları ADNSU-a heç bir şans verməyib -106:68. 3 turdan sonra AZTOP və “NTD” komandası 6 xalla 1-2-ci yerləri bölüşürlər. ADNSU komandası 5 xalla üçüncüdür. “80”lərin aktivində 4, U-16 və ALOV komandalarının isə 3 xalı var.

## *Velosiped*



Noyabrın 25-də Bakıda BMT-nin Bakı ofisi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Velosiped İdmanı Federasiyası və Heydər Əliyev Mərkəzinin tərəfdaşlığı ilə “Heç kim kənarda qalmasın: Qadınlara və qızlara qarşı zorakılığa son!” şüarı altında veloyürüş keçirilib.

Azneft meydanından start götürən veloyürüş Heydər Əliyev Mərkəzinin qarşısında başa çatıb. Yürüşə qatılan 100-dən artıq velosipedçi 12 kilometr məsafə qət edib.

Veloyürüşdə BMT-nin İnkişaf Proqramı və BMT-nin Əhali Fondunun rezident nümayəndəsi Qulam İshaqzai, Azərbaycanda akkreditə olunmuş xarici diplomatik korpusların nümayəndələri, velo idmanı həvəskarları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Qulam İshaqzai yürüş iştirakçılarına gender əsaslı zorakılıq barədə məlumat verib. O bildirib ki, veloyürüş “Gen-

# *Veloyürüşçülər “Qadınlara və qızlara qarşı zorakılığa son!” dedilər*

der zorakılığına qarşı 16 günlük fəallıq kampaniyası” çərçivəsində keçirilir. Bu beynəlxalq kampaniya 25 noyabr - Qadın Zorakılığına qarşı Beynəlxalq Mübarizə Günündən başlayaraq 10 dekabr - İnsan Hüquqları Gününədək davam edəcək. Kampaniyanın məqsədi gender zorakılığına qarşı milli, regional və beynəlxalq səviyyədə maarifləndirmənin aparılmasıdır. Qeyd etmək lazımdır ki, bütün dünyada insanlar gender zorakılığına qarşı mübarizə aparmağa, mövcud olan stereotipləri dəyişməyə, qanunvericiliyi təkmilləşdirməyə və imkanları genişləndirməyə çalışırlar. “16 günlük kampaniya” kimi tanınan bu tədbir vasitəsilə hamını qadınlara və qızlara qarşı zorakılığın qarşısını almağa çağırırıq.

Qulam İshaqzai tədbirin təşkilində göstərdiyi dəstəyə görə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə, Azərbaycan Velosiped İdmanı Federasiyasına və Heydər Əliyev Mərkəzinə minnətdarlıq edib.

Xatırladaq ki, bu kampaniya Azərbaycanda 2008-ci ildən etibarən keçirilir. ABŞ Beynəlxalq İnkişaf Agentliyi vasitəsilə (USAID) Birləşmiş Ştatlar, BMT-nin Əhali Fondu, İnkişaf Proqramı, Qaçqınlar üzrə Ali Komissarlığı, Uşaq Fondu, Beynəlxalq Miqrasiya Təşkilatı, Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Diplomatik Missiya Rəhbərlərinin Həyat Yoldaşları Təşkilatı, Heydər Əliyev Mərkəzi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Azərbaycan Velosiped İdmanı Federasiyası builki kampaniyanın əsas tərəfdaşları və dəstəkçiləridir.

Veloyürüşün iştirakçısı Mehriban İsmayılova yarışdan sonra bildirib ki, belə tədbirlərin keçirilməsi çox önəmlidir. Çünki bu cür vacib bir mövzu daim gündəmdə qalmalıdır. O, Azərbaycanda qadınların hüquqlarının qorunması, zorakılığa qarşı mübarizə istiqamətində mühüm işlərin görüldüyünü, qadın və qızlarımızın cəmiyyətdə daha fəal olmaları üçün yaxşı şərait yaradıldığını söyləyib.

Tədbirin sonunda yürüş iştirakçıları Heydər Əliyev Mərkəzinin önündə xatirə şəkli çəkdiriblər.

Yubiley- 80

# Ağacan Abiyev:

# “Elm və idmanı heç vaxt biri-birindən ayırmamışam”

***İnsan hansı yaşda olursa olsun, uğur əldə etmək, insanlara gərək olmaq, vətənə, xalqa şərəflə xidmət etmək üçün yaşayır. Bu həyatda hər kəsin öz missiyası var. Kimi bu missiyanı yerinə yetirir, kimi isə yox. Müsahibimiz, 80 illik yubileyini qeyd edən Ağacan Abiyev də öz missiyasını şərəflə, vətəninə, xalqına layiq yerinə yetirən insanlardandır. Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) baş katibi, Milli Məclisin deputatı, Boks Federasiyasının vitse-prezidenti, Əməkdar elm xadimi, texnika elmləri namizədi, professor, beynəlxalq dərəcəli hakim Ağacan Abiyev mənalı və zəngin həyat yolu keçib. Yubiley ərəfəsində Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə “Şərəf” ordeninə layiq görülən müsahibimiz “Olimpiya dünyası” qəzetinə mənalı ömür yolundan, idman və elm karyerasından danışdı.***



***- Ağacan müəllim, ömrün 80-ci payızına qədəm qoydunuz. Həyatınızdan razısınızmı?***

- İnsan dünyaya qurub, yaratmaq üçün gəlir. Ömrüboyu çalışır ki, ailəsi, vətəni, xalqı üçün xeyirli işlər görsün. O insan xoşbəxtdir ki, mənalı ömür yaşayır və vətəninin çiçəklənməsi üçün nəsə edir. Belə insanlar nə qədər çox yaşasalar, vətənə, xalqa da, bir o qədər xeyir verəcəklər. Fərqi yoxdur, nə qədər ömür yaşayırsan yaşa, əsas odur ki, gərəkli olasan. Mən də özümü belə xoşbəxt insanlardan hesab edirəm.

***- Seçilmiş insanlar əldə etdiyi uğurlara görə kimə və nəyə borcludurlar?***

- İnsan Allahın yaratdığı varlıqdır. Təbiətən hamı eyni doğulsa da, eyni taleyi və ömrü yaşamır. Burada ailə tərbiyəsi, gen, təhsil, xarakter mühüm rol oynayır. Bütün bunların məcmuyunda insan mükəmməl olur. İnsan gərək şeytana uymasın, şər qüvvədən uzaq olsun. Kamil, inamlı insan ömrünü gözəl işlərə, əməllərə sərf edir. İnsan övladı uca yaradanın tövsiyələrinə əməl etməli, onun qoyduğu proqramla hərəkət etməlidir. Bu zaman onun həyatı düz yolda olur və mənalı ömür yaşayır. Bir sözlə, kim yaradanın dediklərinə əməl edirsə, xoşbəxt insandır. Çünki Tanrı insanları birliyə, yaxşılığa, bəşəriyyətə xidmət etməyə çağırır. Deyirlər ki, dünyanı gözəllik xilas edəcək. Mən isə deyərdim ki, yaxşılıq dünyanı xilas edəcək.

## “Nə qədər sağam, oxuyun”

***- Ağacan müəllim, Sizin həyatınız bugünkü gənc nəslə örnəkdir...***

- Suraxanı rayonunun, Bülbülə qəsəbəsində, sadə neftçi ailəsində dünyaya göz açmışam. Ailədə 9 uşaq olmuşuq -6 qardaş, 3 bacı. Ağlım kəsəndən atamın bu sözlərinin eşitmişik: “Nə qədər sağam, oxuyun”. Onun bu sözləri bir şüara çevrilmişdi. 4 yaşım olanda atam müharibəyə getdi. Anam 5 uşağa tək baxırdı. Böyük bacım, qardaşım imkan daxilində anama köməklik edirdilər. Biz məktəbə atam müharibədən qayıdandan sonra getdik. Böyük qardaşım Əsgər 10 yaşında orta məktəbə getdi. Bir il sonra isə mən. Aramızda 3 yaş fərq var idi. Əsgər məktəbi əla qiymətlərlə bitirdi və Azərbaycan Dövlət Universitetinin fizika fakultəsinə qəbul olundu. Əla oxuduğuna görə 2-ci kursda onu Moskva Dövlət Universitetinə göndərdilər. Qardaşım oranı da qırmızı diplomla qurtardı. Sonra aspirantuyara girdi, elmlər namizədi oldu. Əsgər Bakıya qayıtdıqdan 3 il sonra atom fizikası mövzusu üzrə doktorluq dissertasiyanı müdafiə etdi. Əsgər mənim üçün həmişə nümunə olub. Mən həmişə ona oxşamağa çalışırdım. Mən də Əsgər kimi Moskvada oxudum, orada aspiranturanı qurtardım, müdafiə elədim. İndi fəhlə Qulamın övladlarından 2-si professor, 3-ü elmlər namizədidir. Bacım tibb insitutunu qurtarıb, baş həkimdir. Məndən kiçik qardaşım Telman isə həmişə deyirdi ki, mən Əsgərə yox, Ağacana oxşamaq istəyirəm.

***- Niyə belə deyirdi ki?***

- Çünki mən həm yaxşı oxuyurdum, həm də idmanla məşğul olurdum.

***- İdmana maraq Sizdə hardan idi?***

- Bu barədə heç danışmamışam. Məhləmizdə müxtəlif millətlərin nümayəndələri yaşayırdılar. Tez-tez həyətdə uşaqlar arasında “razborka” olurdu. Ağzımın əzildiyi, burnumun qanadığı günlər o qədər olub ki (gülür). Bəzi uşaqlarla bacara bilmədiyim üçün özümü qınayırdım və çarə axtarırdım: nə edim ki, onların cavabını verə bilim və yerlərində otuzdurum. 10-12 yaşlarında çəlimsiz oğlan idim o vaxt, çəkim də 46-48 kq. Böyük qardaşım Eyvazəlinin 19 yaşı var idi. O, Suraxanıdakı Mədəniyyət evində boks idman növü ilə məşğul olurdu. Hardasa 2 ildən sonra Eyvazəli Azərbaycan çempionatında 2-ci yeri tutdu. Mən onun məşqlərində olur, döyüşlərinə baxırdım. Məndə də boksa həvəs oyandı. Bir gün qardaşıma dedim ki, məni də boksa yazdır. Qardaşım məni zala apardı. Məşqçi rus idi. O mənə baxan kimi gülərək dedi ki, bunun nə canı var ki, boksla məşğul olsun. Məni məşqə götürməsi üçün çox yalvardım. Sizi inandırıram ki, yorulmadan, fasiləsiz məşqlər edirdim. Həftədə 3 dəfə 2 saat məşğul olurduq. Həm Suraxanıya gedirdim, həm də Sabunçu rayonundakı Razin stadionuna. Sizə deyim ki, idmançıların çoxu sadə, kasıb ailələrdən çıxırlar. Çünki çətinlik görürlər, əzab-əziyyətə qatlaşırlar.

***- Məşqə başlayanda neçə yaşınız var idi?***

- 14 yaşım olardı. Uşaqlar 2 saat məşq edəndə, mən 3 saat məşq edirdim. Qarşıma məqsəd qoymuşdum, yarışa çıxmalı, nəticə əldə etməliydim. Amma dərslərimi də yaxşı oxuyurdum. Çünki atamın sözləri qulaqlarımda sırğa idi: “Bax ha, pis oxusan, idmana getməyəcəksən”. Boksa gedəndən sonra dərslərimi daha da yaxşı oxumağa başladım.

## “Bədən tərbiyəsi və idman insanın həyat keyfiyyətini yüksəldən bir vasitədir”

***- Bu gün Sizi cavan, gümrah saxlayan da elə idmandır...***

- İdman sağlamlıqdır, insanın gümrah yaşaması üçün bir qarantdır. İdmanla məşğul olan adamın beyni də, zehni də yaxşı işləyir, fəal olur. Bir sözlə, bədən tərbiyəsi və idman insanın həyat keyfiyyətini yüksəldən bir vasitədir.

***- Rinqdə ilk döyüşünüzü necə xatırlayırsınız?***

- (gülür) Çox pis. İlk döyüşümü uduzdum. Eyvazəli həmin yarışda hakimlik edirdi. Yaman dilxor olmuşdum. Uduzduğum üçün özümə bəraət qazandıranda qardaşım dedi ki, Ağacan, sən uduzmusan, vəssalam. Mən də qayıtdım ki, eybi yox, gələn dəfə sizə göstərərəm. Növbəti döyüşə 1 aydan sonra çıxdım. Rəqibim erməni boksçusu idi. Böyük üstünlüklə ona qalib gəldim. Sonra dalbadal iştirak etdiyim 10 yarışın hamısını qələbə ilə başa vurdum. İndiki kimi yadımdadır, 1954-cü ilin dekabr ayı idi, Bakı birinciliyi keçirilirdi. Həmin yarışda 1-ci yeri tutdum. O vaxt 17 yaşım var idi. Növbəti il gənclər arasında həm Bakı çempionu, həm də Azərbaycan çempionu oldum. 1954-cü ilin axırlarında Moskvada ümumittifaq yarışları keçirilirdi. “Neftçi” İdman Cəmiyyətinin təmsilçisi kimi bu yarışın da qalibi adına layiq görüldüm.

***- Yəqin ki, uçmağa qanadınız yox idi...***

- Moskvada mənə diplom, hədiyyə verdilər. Sevinə-sevinə onları valideynlərimə göstərdim. Onların mənimlə fəxr etdiyini görəndə ürəyim dağa döndü. Nəticələrim artdıqca, boksa həvəsim daha da artırdı. O vaxtlar orta məktəbin sonuncu sinfində oxuyurdum. Oxuyacağım ali məktəbi seçməli idim. Atam mənim mühəndis olmağımı istəyirdi.

***- Niyə, məhz mühəndis olmağınızı istəyirdi?***

- Atam neft mədənlərində fəhlə işləyirdi. İşdən gələndə adətən, onun çəkmələrini ya mən, ya da qardaşım çıxardırdı. Atamın çəkmələri hisin-pasın, mazutun içində olardu. Çəkmələri çıxaranda əllərimiz mazuta bulaşırdı. O da deyərdi ki, “Görürsünüz, oxumayanın axırı bax, belə olur. Oxuyun, mühəndislər kimi ağ köynək, kostyum geyinin”. Bir sözlə, atamın arzusu məni mühəndis görmək idi.

## “Peşman olsam, gəlib səndən üzr istəyəcəm”

***- Seçim etmək lazım idi və Siz çətin vəziyyətə düşmüşdünüz...***

- Bir tərəfdə atam, digər tərəfdə boksa olan sevgim. Bilmirdim, nə edim. Arzum bədən tərbiyəsi institutuna qəbul olmaq, sonra isə boksçu, məşqçi olmaq idi. Evdəkilərə nə qədər dil tökdümsə, mənə məhəl qoyan olmadı. Nə isə, 1955-ci ildə sənədlərimi Azərbaycan Neft və Kimya İnstitutuna verdim və neft mədən fakultəsinə qəbul oldum. Orada cəmi 2-3 ay oxudum. Məşqə gedirdim, yarışlarda iştirak edirdim. İdman məni özünə çəkirdi. 1956-cı ildə Moskvada Spartakiada təşkil ediləcəkdi və mən bu yarışa çox ciddi hazırlaşırdım. Yanvar ayından dərsə getmədim. İnstituta getmədiyimi bircə Əsgər bilirdi.

***- Bəs atanızın qəzəbindən qorxmurdunuz?***

- (Gülür) Atamın könlünü almaq üçün planım var idi. Bizim həyətimiz daşlıq, qayalıq idi. Heç nə əkmək olmurdu. Atamın ürəyini yumşaltmaq üçün torbalarda torpaq daşıyıb, həyətə tökdüm. Sonra göy-göyərti toxumu alıb, səpdim. Anam mənə baxıb məətəl qalmışdı, fikirləşirdi, uşağın başına hava gəlib, nədir. Atam səhər çıxır, axşam gəlirdi. Nə biləydi ki, oğlu mühəndis olmaq əvəzinə həyətə torpaq tökür. May ayında artıq toxumlar cücərməyə başlamışdı. Həyəti əməlli-başlı abıra salmışdım. Nə başınızı ağrıdım, yay sessiyasında atam məsələdən agah oldu. Bir gün məni yanına çağırıb dedi: “Bu nədir, oxuyub mühəndis olmaq əvəzinə vəzəri əkirsən?”. Ona dil tökdüm ki, mən idmanı, boksu sevirəm. İdman institutuna girəcəm, müəllim olacam və müəllimin maaşı heç də mühəndisin maaşından az deyil və s. Atam əllərini yellədi də dedi: “Özün bilərsən. Peşman olsan, deyərsən”. Mən də dedim ki: “Peşman olsam, gəlib səndən üzr istəyəcəm”.

1956-cı ildə sənədlərimi AZİ-dən alıb Bədən Tərbiyə və İdman İnstitutuna verdim. İkinci kursda oxuyanda artıq idman ustası normasını yerinə yetirmişdim. Növbəti il isə SSRİ idman ustası oldum. Oxuya-oxuya həm yarışlarda iştirak edir, həm də məşqçilik edirdim. 1960-cı ildə ali məktəbi qurtaran kimi məni “Neftçi”yə boks üzrə baş məşqçi götürdülər. Altıqat Azərbaycan çempionu, Zaqafqaziya, Moldova birinciliklərinin qalibiyəm.

***- Abbas Ağalarovla bağlı hansı xatirə yadınızdadır?***

- 1962-ci ildə Azərbaycan çempionatı keçirilirdi. Yarışın qalibi olan 20 çempiondan 4-ü təmsil etdiyim “Neftçi”dən idi: mən və 3 yetirməm. Abbas Ağalarov məni digər məşqçilərə göstərib dedi: “Baxın, gözünüzə su verin. İki onun boydasınız, bir nəticəniz də yoxdur. Bu adam özü də çempiondur, uşaqları da”. Sonra həmin yetirmələrimdən ikisi SSRİ idman ustası oldu.

***- Necə oldu ki, ikinci ali təhsil aldınız?***

- Dediyim kimi, “Neftçi”də baş məşqçi işləyirdim. Dərsdən və məşqdən sonra boş vaxtım qalırdı. Darıxırdım, 21 yaşım var idi, gənc idim. Atamın arzusu ürəyimdə qalmışdı. Sənədlərimi Politexnik İnstitutunun metallurgiya istehsalının avtomatlaşdırılması və kompleks mexanikləşdirilməsi fakültəsininin əyani şöbəsinə verdim. 1966-cı ildə oranı fərqlənmə diplomi ilə bitirdim. Məni institutda saxladılar. Bir ildən sonra isə Moskvaya aspiranturaya göndərdilər. Orda müdafiə elədim və elmlər namizədi adı aldım. Mənə Lipetsk şəhərində ev verdilər. O vaxt artıq evli idim və 1 qızım var idi. 1971-ci ildən Lipetsk Politexnik İnstitutunun dosenti, kafedra müdiri işləmişəm. Bakıya 1983-cü ildə qayıtdıq. Həmin ildə məni İnşaat Mühəndisləri İnstitutunda Elektrotexnika və elektronika kafedrasının müdiri təyin etdilər. O vaxtlar həm də beynəlxalq dərəcəli hakim kimi yarışlarda iştirak edirdim.

***- 28 il İdman Akademiyasına rəhbərlik etmisiniz...***

- 1987-ci ildə məni doğma instituta rektor seçdilər. 4 nəfərin arasından mənim namizədliyim keçdi. 2015-ci ilə qədər ADBTİA-na rəhbərlik etmişəm.

***- İndiyə qədər bir çox vəzifələrdə çalışmısınız. Hansı vəzifədə özünüzü daha rahat hiss etmisiniz?***

- 17 il çalışdığım Lipetsk Politexnik İnstitutunun “Avtomatika və elektronika” kafedrasının müdiri işləyəndə. İndi də keçmiş iş yoldaşlarımla əlaqə saxlayıram. Buyaxınlarda bir tədbirə dəvət etmişdilər. Orada tələbələrimlə də görüşdüm. Elm və idmanı heç vaxt biri-birindən ayırmamışam, paralel aparmışam. Elmi işlə məşğul olduğum vaxtlarda Avropa Boks Federasiyasının vitse-prezidenti, Dünya Boks Federasiyasının İcraiyyə Komitəsinin üzvü kimi fəaliyyət göstərmişəm.

## “Ata ocağından isti yer yoxdur”

***- Sizin valideynləriniz Bakıya Cənubi Azərbaycandan gəliblər...***

- Atamla anam Bakıya 1920-ci ildə, Cənubi Azərbaycandan gəliblər. Atam Sarab, anam isə Ərdəbil şəhərindəndir. Burda tanış olub, evləniblər. O vaxt bura işləməyə gələn insanları Sabunçu qəsəbəsindəki mədənlərin arasındakı evlərdə yerləşdiriblər. Sonra atam işləyib yığdığı puldan Bülbülə qəsəbəsində ikiotaqlı ev tikib. Moskvadan qayıtdıqdan sonra həmin ata ocağında yaşayıram.

Ata, anamın yaşadığı, uşaqlığımı, gəncliyimi keçirdiyim o ev mənim üçün çox doğmadır. Ata ocağından isti yer yoxdur. Çünki burada atamın-anamın ruhu dolaşır. Sevinirəm ki, onların ruhu şaddır.

***- Bəziləri təhsillə idmanı bir yerdə tutmağın mümkün olmadığını deyirlər. Bu fikirə münasibətinuz necədir?***

- Mən orta məktəbdə yaxşı oxumuşam. Boksa da gedirdim. Hər ikisini də çatdırırdım. Bunlar sadəcə, bəhanədir. Ölkəmizdə hər bir sahədə olduğu kimi, təhsil sahəsinə böyük diqqət və qayğı var. Ölkə rəhbəri İlham Əliyev gənclərə həmişə diqqət və qayğı göstərir, onların problemləri ilə maraqlanır. Ölkənin birinci xanımı, birinci vitse-prezident Mehriban Əliyeva bağça, məktəblərin əsaslı təmir olunması və yenilərinin tikilməsi üçün əlindən gələni əsirgəmir. Respublikamızda təhsil sistemi günü-gündən inkişaf edir. Təhsil ocaqlarında hər cür şərait yaradılır. Qeyd edim ki, idman yarşları zamanı ölkəmizdə qonaq olan rəsmilər təəccüblərini gizlətmirlər. Onlar bizə həsəd aparırlar ki, firavan ölkədə yaşayırıq.

Bu gün digər ölkələr bizim təcrübəmizdən yararlanırlar. Azərbaycan I Avropa Oyunlarını müvəffəqiyyətlə təşkil etməklə böyük təcrübə və şöhrət qazandı. II Avropa Oyunlarına ev sahibliyi edəcək Belarus bugünkü gündə kömək üçün bizə müraciət edir. Bu faktın özü Azərbaycanın böyük gücə və potensiala malik olduğunu bir daha sübut edir.

***- Siz həm də Milli Məclisin deputatısınız. Bugünlərdə müzakirə olunan məsələ ilə bağlı nə deyə bilərsiniz?***

- Dövlətimiz əhalinin aztəminatlı təbəqəsini həmişə diqqətdə saxlayır, onların problemləri ilə maraqlanır. Bugünlərdə aztəminatlı ailələrə yardım göstərilməsi barədə müzakirələr aparıldı. Bu, çox yaxşıdır. Azərbaycan müharibə şəraitində olmasaydı, həyatımız, güzəranımız daha yaxşı olardı. Çünki bu vəziyyət yaşayış səviyyəsinin hardasa 30 faiz aşağı düşməsinə səbəb olur.

***- Ağacan Abiyev gərgin iş qrafikindən yorulmur. Bunun sirri nədədir?***

- Səhər saat 8-dən axşam 8-ə kimi, bilirsiniz, nə qədər iş görmək olar? Amma istəsən. İstəməsən, rahat yata bilərsən. Heç kəs sənə mane olmayacaq. Enerjini sərf etmək lazımdır. Enerji sərf olunduqca, həyat keyfiyyəti də yüksəlir. İnsan bədəninin 70 faizi sudan ibarətdir. İnsan hərəkət etdikcə, həmin su qaynayır. Nə qədər çox hərəkət etsən, bir o qədər yaxşıdır. Götürək, Kür və Araz çaylarını. Biri sakit axır, biri isə gurultu ilə, səs salaraq. Daim hərəkətdə olan insan Kür çayına bənzəyir. Hərdən valideynlər uşaqların dəcəlliyindən narazılıq edirlər. Hərəkətli uşaq sağlamdır və bunun qarşısını almaq olmaz.

***- Yaradıcılığınız barədə nə deyə bilərsiniz?***

- 4 elmi ixtiram var, 1 monoqrafiyanın, 100 elmi nəqalənin müəllifiyəm. İki kitabım çapdan çıxıb. Savadlı, təhsilli olmaq insanın zinətidir, baş ucalığıdır, mənəvi zənginliyidir.

## “İnsanı yaşadan gözəl əməllərdir”

***- Necə düşünürsünüz, yaxşı insanlar artıb, ya azalıb?***

-Azərbaycan xalqı öz keçmişinə, adət-ənənələrinə, milli, mənəvi dəyərlərə çox bağlıdır. Milli mənəvi dəyərlər üzərində qurulan müasir, dünyəvi dövlətimiz insanlığı, hümanizmi üstün tutur. Insanlar gərək biri-birinə laqeyd olmasınlar. Biri-birini sevsinlər, diqqət, qayğı göstərsinlər. Allah bizi sevirsə, biz niyə sevməyək? İnsanı yaşadan, var edən, onun ruhunu gözəlləşdirən gözəl əməllərdir, yaxşılıqdır.

***- Ağacan müəllim, hansı mükafatlara layiq görülmüsünüz?***

- Vətən qarşısında xidmətlərimə görə “Şöhrət”, “Dövlətə qulluğa görə” və “Şərəf” ordeni ilə mükafatlandırılmışam. Bundan sonra da qalan ömrümü vətənimə, xalqıma qulluq etməyə hazıram.

***- Mətbəxlə aranız necədir?***

- Yeməyə qarşı o qədər tələbkar deyiləm. Evdə nə hazırlaşalar, yeyirəm. Özüm qayğanaq, pomidor çığırtması bişirə bilirəm.

***- Neçə övladınız var?***

- 2 qızım var- Mehriban və Milena. Mehribanın 2 oğlu var - Cavid və Ağacan. Cavidin 28, Ağacanın isə 21 yaşı var. Milenanın bir qızı var- Nərminə. Buyaxınlarda toyu olub.

***- Ailədə idmanı seçən olmayıb...***

- Anaları razı olmadı. Mənim anam idmanla məşğul olmağıma heç nə demədi, çünki 9 övladı var idi. Biri var, 1 uşağa baxasan, biri də var, 9 uşağa (gülür). Tək övladın üstündə əsirsən də, istər-istəməz.

***- Hansı olimpiadalarda iştirak etmisiniz?***

- Afina-2004, Pekin-2008, London-2012 Yay Olimpiya Oyunlarının iştirakçısıyam. Afina-2004-də baş hakim, London-2012-də isə münsiflər heyətinin üzvü kimi çıxış etmişəm.

***- Artıq 25 ildir ki, MOK-un baş katibisiniz...***

- 1997-ci ildə ölkənin qabaqcıl idmançıları Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti, millət vəkili İlham Əliyevə qəzet vasitəsilə açıq məktubla müraciət etdi. Müraciətdə ondan MOK-a rəhbərlik etməsi xahiş olunurdu. İlham Əliyev məktubumuza müsbət cavab verdi. O, idmançıların xahişi ilə 1997-ci il iyulun 31-də MOK-un prezidenti seçildi. Həmin vaxt məni də baş katib seçdilər. O vaxtdan indiyə kimi işləyirəm.

***- Gənclərimizə nə tövsiyə edərdiniz?***

- Gənclər cəmiyyətin əsas və fəal hərəkətverici qüvvəsidir. Ölkənin gələcəyi onların əlindədir. İlk növbədə əməksevər olsunlar, vətəni sevsinlər. Ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyev hər zaman gənclərimizə dəstək olub və dövlət səviyyəsində onlara yardım göstərib. Həmin siyasət bu gün onun davamçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Gənclərimizə tövsiyəm budur ki, ulu öndərin dediklərinə riayət etsinlər. Əgər bunu etsələr, həyatda uğur qazanacaqlar, irəli gedəcəklər, vətənə, xalqa gərəkli olacaqlar. Həm də idmanı sevsinlər.

***- Dönüb ömür yoluna baxanda nə görürsünüz?***

- Yaşadıqlarımdan peşman deyiləm. Həyatda lazım olan hər şeyi etmişəm və mənalı, şərəfli ömür yaşamışam.

***Səadət Hakıyeva***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASIYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"

***Bir insan barəsində danışmaq istəyərkən, əvvəlcə onun gördüyü işlər və əmələr barəsində özümüzdə təsəvvür yaratmağa çalışırıq. Çalışırıq ki, onun yaşadığı ömürdən ən maraqlı və yadda qalan anlara diqqət yetirək. Əgər o anlar dəqiqələrlə, saatlarla və günlərlə əvəz olunursa, deməli o insan barəsində danışmağa və onun üçün "qızıl" vaxt itirməyə dəyər. Biz budəfəki yazımızda elə bir insan haqqında danışmaq istəyirik ki, o, bu həyatda çoxlarının fərqinə varmadığı düşüncələri ilə, gördüyü işlərlə, qazandığı uğurları ilə fərqlənib. Qısa ömür yaşayan qəhrəmanımız ömrün amansızlığına boyun əyməyərək, həyata hər zaman meydan oxuyub. Bu yerdə dahi rus yazıçısı Fyodr Dostoyevskinin bir fikri yerinə düşür: "Bilin ki, insanın dəyərini varlığı deyil, onun yoxluğu göstərir. Unutmayın ki, yoxluğu bir şey dəyişdirməyənin varlığı da gərəksizdir"***

# "Ustad dərsləri uşaqların psixologiyasına təsir edir, onların fərdi düşünmək qabiliyyətini artırır"

Bu yazımızın qəhrəmanı Vüqar Həşimovdur. O. Azərbaycan şahmatının ən tanınmış simalarından biridir. Fəqət Vüqar bu gün bizim aramızda deyil. Haqq dünyasına vaxtsız köçən şahmatçımız sağ ikən varlığı ilə yoxluğunu unutdurmayan bir şahmatçı olub. Biz və onun yaxınları bu gün də onu xatırlayırıq. Zaman keçəcək, illər ötəcək, amma Vüqar Həşimov hər zaman xatirələrdə yaşayacaq.

"Olimpiya dünyası" qəzeti Azərbaycan idmanını dünyada tanıdan hər bir idmançını olduğu kimi, lakin çoxlarının, necə deyərlər, tanımadığı tərzdə təqdim edir.

Bu yazıda biz Akademiyanın fəaliyyəti ilə tanış olub, Vüqarın xatirəsini anmağa çalışdıq. Bizə onu xatırlamaqda Vüqarın valideynləri dəstək oldular. Bildirdilər ki, Akademiyanın açılması və buradakı fəaliyyət proqramı məhz mərhum şahmatçının arzuları üzərində qurulub.

## "Fərdi dərslər olmasa şahmatçı inkişaf edə bilməz"

Əvvəlcə, Akademiya barəsində qısa məlumatı oxucularımıza çatdırmaq istəyirik. Vüqar Həşimov Şahmat Akademiyası 2016-cı il oktyabrın 1-dən fəaliyyət göstərir. Vüqar Həşimov adına Şahmat Fondu nəzdində yaradılmış bu Akademiyanın əsas məqsədi ölkədə şahmatın inkişaf etdirilməsi, yeni istedadların üzə çıxarılması, müxtəlif səviyyəli turnirlərin, habelə Azərbaycanın aparıcı şahmatçı və məşqçilərinin mühazirələrinin təşkil edilməsindən ibarətdir. Akademiyada ölkənin güclü şahmatçılarının yetişməsində zəhməti olan təcrübəli məşqçilər - Xanlar və Anar Allahverdiyevlər, Müşfiq Əsgərov uşaqlara şahmat idman növünün sirlərini öyrədirlər.

Bütün bunları yaxından öyrənmək üçün Vüqar Həşimov Akademiyasına baş çəkdik. Akademiyada bizi Vüqar Həşimovun atası, Vüqar Həşimov Fondunun təsisçisi, Əməkdar məşqçi Qasım Həşimov və mərhum şahmatçının anası, Akademiyasının direktoru Aidə Həşimova qarşıladı. Aidə xanım Akademiya haqqında məlumat verərək, bizi maraqlandıran sualları cavablandırdı. "Akademiyanın açılmasında əsas məqsədimiz Vüqar Həşimovun adını əbədiləşdirmək, onun arzularını həyata keçirmək, eyni zamanda istedadlı şahmatçıları üzə çıxarıb onları gələcəkdə Vüqarın davamçısı etməkdir. Hazırda Akademiyada 150-dən çox şagird şahmat idman növünün sirlərinə yiyələnir. Dərslər şagirdlərə 6 müəllim tərəfindən keçirilir. Şahmat dərsləri üç dildə - Azərbaycan, rus və ingilis dillərində aparılır. Dərslər monitorlar vasitəsi ilə proqramlarla tədris olunur. Dərslərin daha keyfiyyətli keçirilməsi üçün Rusiya və Belarusdan ən müasir proqramlar gətirmişik. Şahmat Akademiyasına qəbul əsasən 4 yaşından başlayır. Bəzən valideynlərin təkidi ilə üç yaşından da bir neçə uşaq götürmüşük. Hansı ki, həmin uşaqlar şahmatı qavraya bilirlər və şahmat taxtası arxasında oturmağı bacarırlar. Həmin uşaqlara həftədə üç dəfə dərs keçirilir. Müəyyən hazırlıqdan sonra uşaqların inkişafına uyğun olaraq onları başqa qruplara keçiririk. Bundan başqa xüsusi qruplarımız da var ki, onlarla müxtəlif müəllimlər məşğul olurlar. Fikrimcə, şahmatçı müəyyən qədər inkişaf etdikdən sonra onlara fərdi dərslər də lazımdır. Şahmat çox dərin bir sahədir. Bu incəliklərin hamısını təkcə qruplarda izah etmək mümkün deyil. Çünki fərdi dərslər olmasa şahmatçı inkişaf edə bilməz. Onu da deyim ki, bu gün qruplarda dərs səviyəsi çox yüksəkdir. Biri var vəziyyəti taxtanın üzərində düzərək izah edəsən, biri də var ki, vəziyəti monitorda dəyişəsən. Belə olan halda dərsin gedişatı da sürətli olur. Eyni zamanda uşaqların təcrübələrini artırmaq üçün ayda bir dəfə təsnifat və dərəcə yarışları keçiririk. Qısa müddət olmasına baxmayaraq, artıq 1-ci dərəcəyə qədər inkişaf etmiş şahmatçılarımız var. İkinci dərəcə alan şahmatçılarımız da çoxdur. Bu vaxt ərzində biz bir neçə beynəlxalq yarışlar da təşkil etmişik. Ötən il dekabrın 15-23-də Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş şahmat festivalı keçirdik. Festival çərçivəsində açıq turnir, 10 yaşına qədər uşaqların qrupunda yarış, rapid və blits turnirlər keçirildi. Bu ilin dekabr ayında da Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş şahmat festivalı, təsnifat turnirləri və reytinq turniri təşkil edəcəyik", - deyə Aidə xanım bildirdi.



## "Ustad dərslərinin keçirilməsi Vüqarın öz arzusu olub"

Söhbət zamanı onu da öyrəndik ki, Akademiyanın fəaliyyəti ərzində bir sıra tanınmış şahmatçılar burada olub, yeniyetmə və gənclərə bu növün sirləri barədə məlumatlar veriblər. Uşaqlar belə görüşlərdən sonra daha həvəslə şahmatla məşğul olur, böyük zirvələrə can atır, öyrəndikləri yeni ideya və variantlar onlara başqa sahələrdə öz töhfələrini verməyə şərait yaradır. Bundan başqa təcrübəli qrossmeysterlərlə ünsiyyət azyaşlıların inkişafına stimul verir. Ustad dərsləri uşaqların psixologiyasına təsir edir, onların fərdi düşünmək qabiliyyətini artırır. Elə Vüqar Həşimovun atası Qasım Həşimov da bunu təsdiq etdi. Onun sözlərinə görə hər mühazirə şahmatçı üçün bir pillə irəliləmək deməkdir. "Biz təkcə Akademiyada yox, ümumiyyətlə, Azərbaycanda güclü yeniyetmə şahmatçıların inkişafı üçün mühüm tədbirlər həyata keçiririk. Yığma komandamızın üzvləri də bu işdə bizə yaxından köməklik göstərirlər. Akademiyada təşkil etdiyimiz tədbirlərə beynəlxalq səviyyəli qrossmeysterlərimizi və məşqçilərimizi dəvət edirik. Onlar mütəmadi olaraq şahmatçılara seanslar, ustad dərsləri keçərək öz bilik və bacarıqlarını yeniyetmələrlə bölüşürlər. Belə seansları və ustad dərslərini rusiyalı qrossmeyster Sergey Karyakin, yığma komandamızın üzvləri Şəhriyar Məmmədyarov və Qədir Hüseynov, beynəlxalq qrossmeyster Rəşad Babayev keçib. Bizim növbəti görüşümüz dekabr ayında Rauf Məmmədovla olacaq. O da bu sahədə öz bacarıqlarını yeniyetmələrimizlə bölüşəcək və onlarla şahmata aid müzakirələr aparacaq. Tamamilə təmənnasız olan bu ustad dərslərinin məqsədi daha çox gənc şahmatçını cəlb etmək və onlara yeni biliklər aşılamaqdır. Bu bilikləri dünya şöhrətli şahmatçıların ustad dərsləri ilə yanaşı, onların oyunlarını izləməklə də mənimsəmək mümkündür. Şahmatçıların inkişafı üçün bu cür tədbirlərin keçirilməsi çox vacibdir. Bir məsələni də qeyd edim ki, şahmatın Azərbaycanda inkişafı, xüsusilə ustad dərslərinin keçirilməsi Vüqarın öz arzusu olub. Vüqar Həşimov özü də vaxtilə çox seanslar keçirib. O, Bakıda və Gəncədə yeniyetmə və gənc şahmatçılarla mütəmadi olaraq görüşlər keçirir, öz biliklərini onlarla bölüşürdü. Vüqar həmçinin ümummilli lider Heydər Əliyevin doğum günü münasibəti ilə Dənizkənarı Bulvarda və Nərimanov rayonunda da seanslar verib. Onun ən böyük arzularından biri yeniyetmə uşaqları şahmata cəlb etmək, təcrübəsini onlara aşılamaq olub", - deyə Qasım müəllim bildirdi.

## "O, rəqibini həm psixoloji, həm də taktika baxımından üstələməyi bacarmışdı"

Bildiyiniz kimi, buyaxınlarda şahmatçılarımız Yunanıstanın Krit adasında keçirilən üzrə Avropa komanda çempionatında qızıl medala layiq görülüblər. Komandamız bu qələbə ilə 3-cü dəfə Avropanın ən güclüsü adını qazanıb. Belə ki, şahmatçılarımız 2009-cu və 2013-cü illərdə keçirilən Avropa çempionatlarında da qitənin ən güclüsü adına sahib çıxıblar. Millimiz ilk dəfə Avropa çempionu tituluna Serbiyanın Novi Sad şəhərində keçirilən yarışda layiq görülmüşdü. Yığmamız yarışın sonuncu turunda Hollandiya şahmatçılarına qalib gəlmişdi. Həmin oyunda komandamıza çempionluq sevincini yaşadan şahmatçı isə mərhum qrossmeysterimiz Vüqar Həşimov olmuşdu. Elə Vüqar Həşimovun atası Qasım Həşimov da bu tarixi qələbəni fəxrlə xatırlayır. Onun fikrincə, Azərbaycan komandasının indiki çempionluğunun təməlini Vüqar Həşimov qoyub. "Həmin yarış mənim xatirəmdə çox gözəl qalıb. Bütün partiyalar başa çatmışdı, təkcə Vüqar Həşimovla Daniel Stelvagenin partiyasından başqa. Hamı həyəcanla bu oyunun gedişatını izləyirdi. Komandamızın çempion olması məhz bu görüşdən asılı idi. Düzdür, görüş çox çətin keçdi. Lakin Vüqar sona qədər mübarizə apardı. O, rəqibini həm psixoloji, həm də taktika baxımından üstələməyi bacarmışdı. Bu həlledici qələbə komandamıza ilk Avropa çempionluğunu qazandırdı. Həmin yarışda komandamızın heyətində yer alan şahmatçılar çox gənc idi. Demək olar ki, onların 22-23 yaşları olardı. Bu gün artıq onlar böyük təcrübəyə malikdirlər. Mənim fikrimcə, 2009-cu ildəki qələbə ilə bu il əldə olunan qələbə arasında başqa bir fərqli cəhət də var. 2009-cu ildəki Avropa çempionatında Azərbaycanın öz yetirmələri iştirak edirdilər. Bu il isə komandamızın heyətində legioner şahmatçı var. Fikrimcə, Vüqar Həşimovu heç kim əvəz edə bilməz. Onun kimi şahmatçılar dünyaya nadir hallarda gəlirlər. Şahmatçılarımızı qələbə münasibəti ilə təbrik etdim. Komandanın üzvləri Bakıya gələndən sonra Vüqar Həşimovun məzarını ziyarət etdilər. Azərbaycan komandasının indiki çempionluğunun təməlini Vüqar Həşimov qoyub. Yığma komandanın üzvləri də bunu etiraf edirlər. Onlar qeyd edirlər ki, bizim bu günki qələbəmiz Vüqarın qələbəsidir. O, 2009-cu ildəki nəticə ilə bizə öyrətdi ki, çempion olmaq mümkündür. Bunun üçün heç nədən çəkinmək lazım deyil. Vüqar yeganə şahmatçı idi ki, özünün hazırladığı variantları, sirləri öz komanda yoldaşları ilə bölüşürdü", - deyə Qasım Həşimov əlavə etdi.

## "Vüqarda olan şahmatçı ruhunu, əzmini heç bir şahmatçıda tapa bilmirəm"

Mərhum şahmatçımızın atası ilə söhbət zamanı bir sıra maraqlı məsələlər də diqqətimizi çəkdi. Öyrəndik ki, Şahmat Akademiyası öz unikallığı ilə fərqlənir. Belə bir şahmat məbədinin olması Azərbaycanda bu növün inkişafından və bu növə olan diqqətdən qaynaqlanır. "Bu məkanın varlığı dünyanın da diqqətini özünə çəkib. Belə ki, bu ilin aprel ayında Dünya Şahmat Federasiyasının (FİDE) prezidenti Kirsan İlyumjinov Vüqar Həşimov Akademiyasında oldu. O, yeniyetmələrə şahmat oynadı, iş rejimimizlə, dərs prosesi ilə tanış oldu və öz tövsiyələrini verdi. Kirsan İlyumjinov Şahmat Akademiyasının fəaliyyətini çox bəyəndi və fəxri qonaqlar kitabına öz ürək sözlərini yazdı. Qeyd edim ki, təkcə Bakıda yox, ümumiyyətlə, MDB ölkələrində də ikinci belə bir Şahmat Akademiyası yoxdur. Biz digər şahmat akademiyalarından və məktəblərindən təkcə, otaqların təmizliyinə, şəraitə görə yox, eyni zamanda keçirilən dərslərin keyfiyyətinə görə də fərqlənirik. Akademiyamızda dərslərin səviyyəsi və keyfiyyəti yüksəkdir. Müxtəlif proqramlarımız var ki, müəllimlərimiz onlardan istifadə edir, uşaqlara bu idman növünün sirlərini öyrədirlər. Belə məktəblər çox olsa şahmat ölkəmizdə daha da inkişaf edər.

Lakin bununla belə məni narahat edən məsələlər də var. Bunun əsas səbəbi Azərbaycanda Vüqar Həşimovun davamçısının, necə deyərlər, hələ görünməməsi ilə bağlıdır. Əgər belə bir şahmatçı olsa, biz ona hər zaman kömək etməyə hazırıq. Təəssüf ki, Vüqarda olan şahmatçı ruhunu, əzmini heç bir şahmatçıda tapa bilmirəm. Bu, bəlkə də heç vaxt olmayacaq. Çünki Vüqarda olan işgüzarlıq, həvəs, istedad, hissiyyat, alicənablıq və mədəniyyət hər şahmatçıda olmur. Amma çox istəyirəm ki, az da olsa ona yaxın olan bir şahmatçı yetişsin", - deyə Qasım Həşimov əlavə edib.

## "İnanıram ki, "Shamkir Chess" turniri gələn il daha yüksək səviyyədə keçiriləcək"

Məlumdur ki, Vüqar Həşimovun vəfatından sonra "Synergy Group" tərəfindən Vüqarın xatirəsinə beynəlxalq şahmat turnirinin keçirilməsi qərara alındı. Aparılan müzakirələrin ardından ilk şahmat turnirinin 2014-cü ilin aprel ayında Şəmkir şəhərində keçirilməsi qərarlaşdırıldı. Beynəlxalq Şahmat Federasiyası (FİDE) tərəfindən beynəlxalq turnir olaraq qəbul edilən Şəmkir Beynəlxalq Şahmat turnirinə FİDE reytinqində ən üst sıralarda qərarlaşan qrossmeysterin dəvət edilməsi nəzərdə tutulmuşdu. Vüqar Həşimovun vəfatının 100-cü gününə təsadüf edən turnir 19-30 aprel tarixlərində Şəmkir şəhərində yerləşən Heydər Əliyev Mərkəzində keçirilmişdi. Ümumilikdə 4 dəfə keçirilən bu turnirin qalibi iki dəfə Maqnus Karlsen (2014, 2015) və iki dəfə Şəhriyar Məmmədyarov (2016, 2017) olub. Gələn il



"Shamkir Chess" turnirinin daha yüksək səviyyədə təşkil olunacağını deyən Qasım müəllim yarışda dünyanın 10 ən güclü qrossmeysterinin mübarizə aparacağını qeyd etdi:

"Cənab Prezidentimiz Azərbaycan şahmatçılarını qəbul edərkən "Shamkir Chess" turniri barəsində danışaraq bu yarışın dünyanın ən elit turniri siyahısında olduğunu dedi. Bu turnir haqqında çox müsbət fikirlər, rəylər var. Gələn il həmin turnir 5-ci dəfə olaraq təşkil olunacaq. İnanıram ki, "Shamkir Chess" turniri gələn il daha yüksək səviyyədə keçiriləcək. Turnirin keçiriləcəyi tarix hələlik müəyyənləşməyib. Bu yarışda dünyanın ən güclü zəka sahibləri iştirak ediblər. Hətta Dünya şahmat tacının hazırki sahibi norveçli qrossmeyster də bu yarışda iki dəfə iştirak edib və qalib gəlib. Çalışacağıq ki, budəfəki yarışa ən güclü qrossmeysterləri Şəmkirə dəvət edək. Turnir Şəmkiri təkcə şahmat aləmində yox, ümumiyyətlə, dünyada çox tanıtdı. Hazırda Şəmkirə dünyanın şahmat mərkəzlərindən biri kimi baxırlar. Dünyada ikinci elə bir turnir yoxdur ki, şahmatçıları o səviyyədə qəbul etsin".

## "Braziliyada Vüqar Həşimovun adını daşıyan komanda var"

Doğrudan da, Vüqar Həşimov istedadı, dərin zəkası ilə yanaşı, həm də alicənablığı ilə seçilirdi. Bütün bu müsbət keyfiyyətlərin Vüqarda cəmləşməsi dünya şahmat təşkilatları və qrossmeysterlər tərəfindən ona verilən qiymətdə də öz təsdiqini tapdı. Təsadüfi deyil ki, şahmat üzrə dünyanın ən nüfuzlu "Tata-Steel Masters" turnirinin 80-ci yubiley qarşılaşması zamanı qaliblər Vüqar Həşimovun adına təsis edilmiş "Fair Play" mükafatı ilə təltif olunacaqlar. Turnir gələn il yanvarın 12-28-də Hollandiyanın Veyk an Zee şəhərində keçiriləcək. Hələ 3 il əvvəl Vüqar Həşimovun ailəsi tərəfindən onun əziz xatirəsinə həsr olunaraq yaradılan "Fair Play" mükafatı da ilk dəfə məhz Veyk an Zee şəhərində təşkil olunan ənənəvi turnirdə dünya şahmat ulduzlarına təqdim edilib. Bu mükafatla dünyanın ən məşhur şahmatçıları David Navara, Şəhriyar Məmmədyarov, Yifan Hou, Pentala Harikrişna təltif olunublar. Qasım Həşimov Vüqarın şəxsiyyət kimi formalaşmasında şahmatın danılmaz rolu olduğunu vurğulayaraq dedi: "Ümumiyyətlə, Vüqar təkcə şahmatçı olmayıb. O, hərtərəfli inkişaf etmiş bir şəxsiyyət idi. O yaşda elm sahəsində hərtərəfli inkişaf etmək hər adama müəssər olmur. Vüqar yeganə qrossmeyster idi ki, dünya şahmatçılarının heç biri ilə pis münasibəti olmayıb. O, hər zaman öz alicənablığı ilə seçilib. Rusiyada, Amerikada və digər ölkələrdə Vüqar Həşimovun xatirəsinə həsr olunmuş turnirlər keçirilir. Bundan başqa Braziliyada Vüqar Həşimovun adını daşıyan komanda var ki, Braziliya çempionatında iştirak edir".

## "Çalışırıq ki, bu gün onun həyata keçirə bilmədiyi arzularını reallaşdıraq"

Vüqar Həşimovun anası Aidə xanım bu gün də Vüqarın yarımçıq qalan arzularını həyata keçirdiklərini bildirdi: "Vüqar həmişə bizim yanımızdadır. Mən bu gün də Vüqarla nəfəs alıram. Biz hər gün Fəxri Xiyabana gedir, onun məzarını ziyarət edirik. O, bizimlədir. Çalışırıq ki, bu gün onun həyata keçirə bilmədiyi arzularını reallaşdıraq. Əsas məsələlərdən biri odur ki, Akademiyanın hazırki yeri icarə əsasındadır. Əgər Şahmat Akademiyası üçün daimi yer verilsə, onda Akademiyanın inkişafını daha yaxşı təşkil etmək olar. Vüqar Həşimovun qazandığı kuboklar, medallar, diplomlar hamısı bizim evdə qalıb. Akademiyada elə geniş yer yoxdur ki, onları burada yerləşdirək. İstəyirik ki, gələcəkdə Vüqar Həşimov muzeyini yaradaq və bir neçə kitablar çap edək. Vüqarın seçilmiş partiyaları, həyata keçirə bilmədiyi sirli gedişləri var ki, onların hamısı bu gün kompyuterdə qalıb. Onların hamısı bir gün işıq üzü görməlidir. Hesab edirəm ki, gələcəkdə bu məqsədlərə də nail olacağıq".

**P.S**. *Qeyd edək ki, beynəlxalq qrossmeyster Vüqar Həşimov şahmat üzrə Azərbaycan yığmasının heyətində Avropa çempionu adını qazanıb, FIDE Qran-pri turnirinin, İtaliyada müntəzəm olaraq keçirilən Reccio-Emiliya şahmat turnirinin və bir çox nüfuzlu turnirlərinin qalibi olub. O, Beynəlxalq Şahmat Federasiyasının (FİDE) reytinqinə görə dünyanın ən güclü şahmatçılarından biri olub.*

***Azər Əlizadə***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

## Bölgə xəbərləri

# "Qabala Open" beynəlxalq turniri başa çatıb

"Qəbələ" İdman Klubunun təşkilatçılığı, Azərbaycan Taekvondo Federasiyasının, Gənclər və İdman Nazirliyinin dəstəyi ilə taekvondo üzrə uşaq, yeniyetmə və gənclər arasında keçirilən "Qabala Open" beynəlxalq turniri başa çatıb. Qəbələ Olimpiya İdman Kompleksində 3 gün ərzində keçirilən yarışda Azərbaycanın 30 şəhər və rayonundan, eləcə də, Türkiyə, İraq, Gürcüstan və Rusiyadan 500-dən çox idmançı iştirak edib. Qız və oğlan idmançılar dörd yaş qrupunda (2006-2007-ci və 2008-2009-cu il təvəllüdlü uşaqlar, 2003-2005-ci il təvəllüdlü yeniyetmələr, 2000-2002-ci il təvəllüdlü gənclər) müxtəlif çəki dərəcələri üzrə mükafatlar uğrunda mübarizə aparıblar. Turnirin təşkilində məqsəd ölkədə taekvondonun təbliğinə, bölgələrdə idmanın bu növünün inkişafına təkan vermək, idmançıların yarış təcrübəsinin və ustalığının artırılması olub. Hər çəki dərəcəsi üzrə ilk üç yeri tutan yerli və əcnəbi idmançılara medal və diplom təqdim edilib. "Qabala Open" beynəlxalq turnirində göstərdiyi uğurlu nəticəyə görə komanda hesabında Bakının "Tofiq İsmayılov" klubu birinci, Ağcabədi idmançıları ikinci, "Təhsil" RİM üçüncü, "Rabitə" idman klubu dördüncü yeri tutub. Turnirdə "Qəbələ" İdman Klubunun 11 idmançısı medal qazanıb.




Qeyd edək ki, "Qəbələ" İdman Klubu ilk dəfə keçirilən turnirin uğurla başa çatdığını nəzərə alaraq, bu yarışı ənənəvi olaraq hər il keçirməyi və daha çox xarici ölkədən idmançıları "Qabala Open" turnirinə cəlb etməyi planlaşdırır.

## *İdman dırmanması üzrə Şəki turnirinə yekun vurulub*

Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyasının (FAIREX) təşkilatçılığı ilə yeniyetmələr arasında idman dırmanması (boldrinq) üzrə Şəki turniri keçirilib. FAIREX-dən bildiriblər ki, Şəki AMA və Qax "Ekstremal" klublarının yeniyetmə idmançılarının iştirak etdikləri turnirdə gərgin idman mübarizəsi aparılıb. Turnirin birinci günündə təsnifat mərhələləri üzrə yarışlar keçirilib. Bu mərhələlərdən müvəffəqiyyətlə keçən idmançılar yarımfinala vəsiqə qazanıblar. Yarışın ikinci günündə idmançılar yarımfinal və final mərhələlərində birincilik uğrunda güclərini sınayıblar. Boldrinq üzrə açıq respublika çempionatının seçmə mərhələsinin yekununda 25 idmançı növbəti mərhələyə yüksəlib. Nəticədə ən güclü səkkiz idmançı finala vəsiqə qazanıb. Çempionatda Yunus Abdurahmanov (AMA) və Əli Osmanlı (Qax Ekstremal) birinci, Elvin Hüseynov (AMA) ikinci, Tural Məhərrəmov (AMA) üçüncü yerə layiq görülüblər.




## *Mingəçevirdə "Şən startlar"*

Mingəçevir şəhər Gənclər və İdman İdarəsinin tədbirlər planına uyğun olaraq məktəbəqədər müəssisələrdə 2012-2013-cü il təvəllüdlü uşaqlar arasında "Şən Startlar" idman yarışı keçirilib. Yarışın keçirilməsində məqsəd uşaqlarda idmana marağın artırılması, fiziki güc və bacarığın nümayiş etdirilməsi, uşaqlar arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi və istedadlı uşaqların aşkar edilməsi olub. Yekun nəticələrə görə, birinci yerə 10 saylı, ikinciyə 1 saylı, üçüncüyə 18 saylı uşaq bağçası layiq görülüblər. Sonda qaliblər Mingəçevir şəhər Gənclər və İdman İdarəsinin təsis etdiyi diplom və hədiyyələrlə mükafatlandırılıblar.

## *Şəhər birinciliyi gərgin mübarizə ilə yadda qalıb*

Gəncə şəhər 2 saylı Uşaq-Gənclər İdman-Şahmat Məktəbində şahmat üzrə yeniyetmələr arasında şəhər birinciliyi keçirilib.

8-16 yaşadək oğlan və qızlar arasında keçirilən birincilikdə 200 məktəbli iştirak edib. FIDE-nin qaydalarına uyğun olaraq, İsveçrə sistemi ilə keçirilən yarışda yekun nəticələrə əsasən ilk 3 yeri tutan şahmatçılar diplom və medallarla təltif olunublar. Digər iştirakçılara isə həvəsləndirici mükafatlar verilib. Qaliblər 2018-ci ilin yanvarında keçiriləcək Azərbaycan birinciliyinin seçmə yarışlarında iştirak etmək hüququ qazanıblar.

*Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi*

# Qədim kəndin müasir tarixi

***Mən sizə öz kəndimdən danışacağam. Öz küllərindən yenidən doğan, yeniliyə, müasirliyə meydan oxuyan, "Böyük qayıdış"ın ilk qaranquşu olan kənddən -Cocuq Mərcanlıdan. O kənddən ki, 23 il idi ki, suyu sovulmuş dəyirmana, xarabazara çevrilmişdi. O yerdən ki, Cəbrayılın yeganə kəndi kimi işğaldan azad olsa da, təhlükə vəziyyətində idi. Qonşu Mehdili kəndində, Lələtəpə yüksəkliyində öz mövqelərini yerləşdirən erməni ordusu tez-tez kəndi atəşə tutur, güllə-baran edirdi. Cocuq Mərcanlının hər bir sakini kimi biz də bu vəziyyəti ürəkağrısı ilə qəbul etməyə məcbur idik. İnsan özünü gücsüz hiss edəndə ürəyi çox acıyır. Doğulduğum, böyüdüyüm doğma torpağa, əsgərlərin özlərinə sığınacaq elədiyi doğma evimizə baxmaq üçün hərbi hissə rəhbərliyindən icazə alanda özümü yox kimi, bir xəyal kimi hiss edirdim. Bir vaxtlar axar-baxarlı, səsli-küylü, yayda yamyaşıl olan, qışda ağappaq qara bürünmüş kəndimi altını üstünə çevrilmiş vəziyyətdə görmək içimi göynədirdi. Səhərlər mal-qaranı, qoyun sürüsünü örüşə aparan qonşuların, bostana, üzüm bağlarına yollanan kənd adamlarının səsi, itlərin ağız-ağıza verib hürməsi, kanalda xalça, palaz yuyan qız-gəlinlərin zarafatları indi də qulaqlarımdadır. O mənzərə kino lenti kimi hər dəqiqə, hər an, hər saniyə gözlərimin önündə canlanır. Öz-özümə deyirəm, kaş həmin günlərə qayıda biləydim...***

O selablar seləliyim yalanmış,
Ötən günlər çalağanmış, çalanmış.
Bircə kövrək xatirələr qalanmış,
Onu da ki, ha çevirim, ha sanım...

***Məmməd Araz***

Yayın cırhacır istisində rəhmətlik atamın (red.S.H.-atam 1993-cü il aprelin 23-də, kəndimiz alınmamışdan 4 ay əvvəl rəhmətə gedib) öz əli ilə düzəltdiyi üzüm talvarının və talvardan sallanan ətirli qızılgüllərin altında sərinlənməkdən, qışda isə evdə çırthaçırtla yanan kömür və ya odun peçinin istisinə qızınmaqdan gözəl nə ola bilərdi?... Çox darıxmışam o günlər üçün. O gözəl günləri nankor ermənilər müvəqqəti də olsa əlimizdən aldılar. Yaşananlar keçmişdə qalır, xatirəyə çevrilir. O günlərə qayıtmaq mümkün olmasa da, kəndimizə yenidən nəfəs verə bildik, onun bərpasına başladıq. İnanıram ki, nəinki Cəbrayılın qalan kəndlərində, eləcə də, işğal altına olan bütün torpaqlarımızda həyat yenidən qaynayacaq və öz sakinlərini təkrar ağuşuna alacaq. Həsrətdən alışıb yanan ürəklərə su çilənəcək, yaralar qaysaqlayacaq, göz yaşları quruyacaqdır.

## Onlar mənim ailəmdir

Cocuq Mərcanlı kəndinin sakinləri ilk dəfə köç adlı kabusun qorxusunu hələ işğaldan 2 il öncə yaşamışdılar. O vaxtlar Bakıda ali təhsil alırdım və kəndə yay tətilinə gəlmişdim. Müharibənin qızğın vaxtları idi. Bir gün xəbər yayıldı ki, ermənilər Arazqırağı kəndləri selə-suya verəcəklər. Köçmək, doğma yurdu tərk etmək qorxusu o vaxtdan ürəklərə xal saldı. Anladıq ki, bir gün uşaqlığımızı, gəncliyimizi keçirdiyimiz doğma kəndimizi, onun salmancı, qanqal topladığımız yamaclarını, İranla sərhəddə yerləşən Təzə Arx körpüsünü, müqəddəs ruhların uyuduğu Lələtəpəni tərk edə bilərik. Həmin gecə çaşıb qalmışdıq: nəyi və necə götürək, hara gedək? Caamatın çoxu, maşını olan maşınla, olmayanı at və ulaq arabası ilə gecəylə Lələtəpəyə qalxdı. Amma bizim kimi az ailə olardı ki, kəndi tərk etmədi. Həmin gecəni səhəri dirigözlü açdıq. Demə, yalan xəbər imiş. Kənd caamatı o müdhiş qorxu hissini bir müddət sonra yenidən yaşamalı oldu. Amma bu dəfə həqiqətən və qorxunc şəkildə...

Xocalı faciəsi müharibə gedən ərazidə yaşayan əhalini ayıltmışdı. Doğma torpağı tərk etmək nə qədər ağır olsa da, heç kəs bu faciənin qurbanlarının düşdüyü vəziyyətə düşmək istəmirdi. Caamat girov, əsir düşməmək üçün başını götürüb qaçırdı. Çünki erməni cəlladlarının Xocalıda törətdiyi vəhşiliklər barədə azından-çoxundan bilirdilər. Əhali bu qaniçən vəhşilərin anasının döşünü kəsib südəmər körpəsinin ağzına verməsindən, kişiləri qadınlarının, ananı balasının, balanı anasının qarşısında təhqir etməsindən, qız-gəlinlərimizin namusuna təcavüzlərindən xəbəri var idi. Böyük qardaşımın həyat yoldaşı Xocalı şəhərindəndir. Onun anasını, bacısını, 2 qardaşını ermənilər girov götürdülər. Öldüləri-qaldıları bilinmədi. Ölüm yaxınımızı, doğmamızı əlimizdən alanda çox kədərlənirik, ağlayırıq. Amma doğmalarını bu cür əzabla itirmək başqa dərddir. Bu dərd insanı içəridən məhv edir, mənliyini əzir, hisslərini korşaldır.








## "Mən sizinlə fəxr edirəm"

Kəndimiz 1993-cü il avqustun 23-də işğal edildi. Üç aylıq erməni işğalından sonra xarabalığa çevrilmiş Cocuq Mərcanlı kəndi 1994-cü ildə Azərbaycan ordusu tərəfindən azad ediləndə vaxtilə orada yaşayan 283 ailədən yalnız Oqtay Həziyevin ailəsi kəndə qayıtdı. Bu ailənin öz dünyası var idi, öz problemləri, qayğıları var idi. Bu ailənin səkkiz üzvü düşmənlə üzbəüz, təhlükə vəziyyətində öz həyatını yaşayırdı, qorxmadan, çəkinmədən. Eldən-obadan ayrı, tək yaşamaq, hələ üstəlik əkin-biçinlə məşğul olmaq, qoyun-quzu saxlamaq asan məsələ deyildi. Bu ailənin bir üzvü kimi (red.S.H-Oqtay Həziyev həm bibim oğlu, həm də qaynımdır) kəndə gedəndə və orada qalanda bu ailənin necə təhlükə içində yaşadığının canlı şahidi olmuşam. Mərmilərin, pulemyotların, güllələrin səsindən qulaq tutulur, adamı vahimə basırdı. Həziyevlər ailəsinin mərdiyinə, təmkininə heyran qalmamaq mümkün deyil. Bu insanlar torpağa, elə-obaya çox bağlıdırlar. Çünki onlar vətəni ürəkdən, bəzəksiz-düzəksiz, mübaliğəsiz sevirlər, heç bir təmənna ummadan. 23 il kənddə tək yaşayan Həziyevlərin ailəsində dövlətimizə, ordumuza, Ali Baş Komandanın gücünə, qüdrətinə inam, sabaha ümid vardı. Bu, vətənpərvərlikdir, mərdlikdir, qəhrəmanlıqdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Oqtay Həziyevi doğma torpaqlara dərin bağlılıq nümayiş etdirməklə insanların vətənpərvərlik hisslərinin yüksəldilməsində göstərdiyi şəxsi nümunəyə görə 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif etdi. İyunun 14-də, Qurtuluş günü ərəfəsində yenidən qurulan Cocuq Mərcanlı kəndində görülən işlərlə tanış olan ölkə rəhbəri Həziyevlərin evində oldu, ailə üzvləri ilə görüşdü. Cocuq Mərcanlı kəndinin bərpası gününü ölkənin həyatında əlamətdar və tarixi gün adlandıran Azərbaycan Prezidenti İlham Əliyev Həziyevlər ailəsi ilə fəxr etdiyini dedi: "İndi bütün Azərbaycan Cocuq Mərcanlı kəndinin tarixini bilir, bütün dünya Cocuq Mərcanlını tanıyır. Bu kəndin Azərbaycan tarixində xüsusi yeri vardır. Cocuq Mərcanlı kəndi cəmi bir neçə ay işğal altında olub. Bu müddət ərzində erməni işğalçıları kəndi tamamilə darmadağın etmişdilər. Həziyevlər ailəsi təhlükə altında olmasına baxmayaraq, bu kənddə yaşayıb, onu tərk etməyib. Cocuq Mərcanlı kəndi artıq sizin adınızla bağlıdır. Kəndi sizdən, sizi isə kənddən ayırmaq mümkün deyil. Siz bunu sübut eləmisiniz. Mən maraqlanmışam, bilirəm ki, siz başqa yerdə yaşaya bilməmisiniz və müəyyən müddətdən sonra kəndə qayıtmısınız, yenidən burda həyat qurmusunuz, nəfəs vermisiniz kəndə. Öz doğma torpağınızda yaşamısınız, təhlükə altında, həyatınızı riskə qoyaraq. Güllə, mərmi altında əsl vətənpərvərlik nümunəsi göstərmisiniz. Göstərmisiniz ki, Azərbaycan xalqı öz torpağına qanı, canı ilə bağlıdır. Göstərmisiniz ki, istənilən şəraitdə Azərbaycan vətəndaşı öz torpağında yaşayır, qurur, yaradır. Hər gün təhlükə altında burda 20 ildən çox tək yaşamısınız. Buna görə bütün Azərbaycan xalqı sizinlə fəxr edir. Siz ən yüksək qiymətə layiqsiniz. Mən sizinlə fəxr edirəm".

Mən də fəxr edirəm ki, azərbaycanlıyam və bu cür humanist, qaykıkeş Prezidentimiz vardır. Bir də Cocuq Mərcanlıda doğulduğum üçün fəxr edirəm. Fərəhlənirəm ki, bir vaxtlar doğma "Olimpiya dünyası" qəzetində mənimlə birgə işləyən bacım Esmira Orucova Bakıda evini, işini qoyub, kəndimizdə müəllimə işləyir. Qürur duyuram ki, qardaşım oğlu Zülfüqar Hakıyev səhhətində problem (red.S.H.-ürəyi sağ tərəfdədir) olmasına baxmayaq, bu gün ordu sıralarında vətənə xidmət edir.

## Dünyaya mesaj

Ötən il uğurlu aprel döyüşlərindən sonra Lələtəpə yüksəkliyinin işğaldan azad edilməsi ilə Cocuq Mərcanlı kəndində təhlükəsiz yaşayışın bərpa edilməsinə, məcburi köçkünlərin öz ata-baba yurdlarına qaytarılmasına əlverişli şərait yarandı. Dövlətimizin başçısı 2017-ci il yanvarın 24-də "Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası haqqında" xüsusi Sərəncam imzaladı və bu Sərəncamdan irəli gələn tapşırıqlar tez bir müddətdə yerinə yetirildi. Beləliklə, Cocuq Mərcanlı qaçqın və məcburi köçkünlər üçün inşa edilmiş sayca 96-cı, məcburi köçkünlərin öz yurdlarına qaytarıldığı ilk yaşayış məskəni kimi tarixə düşdü. Hazırda kənddə 400 ev təsərrüfatı, 1428 sakin qeydiyyatdadır. Kəndin bərpası çərçivəsində birinci mərhələdə 50 fərdi yaşayış evi, 96 şagird yerlik orta məktəb, məscid tikilib, Horadizdən bura yol çəkilib. İkinci mərhələdə isə kənddə 100 fərdi ev, tibb məntəqəsi, uşaq bağçası, poçt, klub-icma mərkəzi istifadəyə veriləcək, iş yerləri açılacaq. Prezident İlham Əliyevin tapşırığına əsasən kəndimizdə Azərbaycan və Şərq memarlığının nadir incilərindən sayılan tarixi Şuşa məscidinin bənzəri olan məscid tikilib. Kənd sakinləri bu dini ibadətgahda Allaha dua edir, dövlətimizə, xalqımıza xoş günlər arzulayırlar. Kənddə məscidin tikilməsi dini ibadətgahların qorunması və onların gələcək nəsillərə çatdırılması baxımından da mühüm əhəmiyyət daşıyır. Bu müqəddəs ocağın inşası, həm də işğalçı Ermənistana və beynəlxalq aləmə bir mesajdır. Öz tarixi keçmişinə sadiq olan Azərbaycan gün gələcək digər işğal altında olan torpaqlarımızı da azad edəcək, Şuşadakı məscidimiz də bərpa ediləcək. Rəhmətlik anam Cocuq Mərcanlıya döndükdən 16 gün sonra, necə deyərlər, bu məscidin ilk sakini oldu. Öz məscidimizdə rahatlandı, kəfənə qoyuldu... Nə deyirsiniz, deyin, bu da bir xoşbəxtlikdir. Bərpadan əvvəl kəndimizə hardasa 7-8 il idi ki, ayaq basmırdım. Çünki o xarabazarlığı görmək istəmirdim. Anam ölümü ilə həm özü qovuşdu vətənə, həm də bizi qovuşdurdu. Vətən müqəddəsdir, ana kimi. Ana şirindir vətən kimi...

Qovuşduq biz, illərdir bir-birinə iki həsrət sevgili kimi, ana bətnindəki körpəsinə qovuşan kimi. Həyatda ən gözəl an həsrətin sona yetdiyi məqam - gün, saat, dəqiqə və saniyələrdir. Tanrıdan diləyim budur ki, Allah hər kəsi istəyinə qovuşdursun. Deyirlər, insan açıları ilə böyüyür. Mən ilk acımı atamı itirərkən yaşadım və ilk dəfə onda böyüdüm. Sonra evimizi, kəndimizi itirəndə, 20 faiz torpaqlarımız işğal ediləndə böyüdüm. Küçədə, ictimaiyyət arasında "Eh, bu qaçqınlar da" kəlməsi ilə başlayan cümlələri eşidəndə böyüdüm. Bir də deyirlər, anası ölmədən kimsə böyüməzmiş. Vallah, daha böyümək istəmirəm...Uşaq olmaq istəyirəm, qəmsiz, kədərsiz, qayğısız, atalı-analı. Gecələr ulduzlara baxıb düşünmək, səhərlər günəşi salamlamaq istəyirəm. Dünyanın hər yerindən səfalı kəndim, qoynunda gözəl, bəxtəvər günlər yaşamaq gözəldir, çürüyüb bir ovuc torpağına dönməzdən öncə...

Kəndimiz bərpa olunandan sonra burda ilk yuva quran qaranquşlar oldu. Qaranquşun gəlişi isə həyat əlaməti, qarşıdakı xoş günlərin müjdəsidir. Ölkə rəhbərinin də dediyi kimi: "İnanıram ki, Cocuq Mərcanlının gələcək həyatı uğurlu olacaq, xoşbəxt olacaq." Minnətdaram sənə, əziz Prezidentim! Yaşa, var ol, Azərbaycan!

***Səadət Hakıyeva***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinə təqdim etmək üçün*

# FUTBOL

## Qurban Qurbanov: “Meydanda məğlub olsaq da, mübarizədə uduzmadıq”

*- Oyun haqda fikirlərinizi bilmək istərdik.*

- Son vaxtlar bu qədər məyus olmamışdım. 90 dəqiqə ərzində yaxşı oyun göstərməyimizi istəyirdim. Amma qırmızı vərəqədən sonra azlıqda qaldıq və oyun istədiyimiz kimi getmədi. Azarkeşlərimizə görə məyus oldum. Bu qədər qırmızı vərəqə aldığımıza görə kimi qınamalı olduğumuzu bilmirəm. Biz həmişə intizamlı komanda olmuşuq. Bəzən belə hallar baş verir. Futbolçulara təşəkkür etmək istəyirəm. Çox güclü komandaya qarşı oynasalar da, sona qədər çəkinmədilər. Meydanda məğlub olsaq da, mübarizədə uduzmadıq.

*- “Qarabağ”ın qapısına ilk penalti təyin olunanda futbolçuları yanınıza çağırdınız. O anda nə baş vermişdi?*

- Futbolçulara bəzi tapşırıqlar vermək üçün onları yanıma çağırdım. Gördüm ki, hamısı şokdadır. Birdən-birə hamısının ruhdan düşdüyünü hiss etdim. Çağırıb, motivasiya vermək istədim. Çünki o halda oynasa idilər, daha böyük hesab qeydə alına bilərdi.

*- Penalti epizodları və qırmızı vərəqə haqda hansı fikirdəsiniz? UEFA-ya məktub göndərməyi düşünürsünüz?*

- Elə bir fikrimiz yoxdur. Penalti epizodları haqda bir söz deyə bilmərəm. Onsuz da, hakim qapımıza penalti təyin etmişdi. O anda qırmızı vərəqə həddindən artıq ağır qərar idi. Son vaxtlar bu məsələyə çox önəm verilir. Qırmızı vərəqəyə görə narazılığım var. Lakin biz hakimlərin qərarını heç vaxt dəyişə bilmərik. Sadəcə, mənə təsir edən odur ki, bizə, Azərbaycan futboluna, komandamıza, həqiqətən də, kiçik baxırlar? Ancaq “Çelsi”nin belə şeyə ehtiyacı yox idi. Onsuz da, onların gücü hər kəsə bəllidir.

*- Hakim qərarları referilərin böyük klublara simpatiyasını göstərir, ya başqa məqamlar var?*

- Gəlin, bu haqda çox danışmayaq. Biz ölkə olaraq, həmişə hər kəsə nümunə olmağa çalışmışıq. Öz davranışımız, əxlaqımızla hər kəsə göstərməliyik ki, idman prinsipləri belədir. Belə fikirlər söyləməsək, daha yaxşı olar. Bəlkə də, kiçik nüanslar var ki, biz onları görmürük. Oyunun epizodlarına baxdıqdan sonra daha dəqiq danışmaq olar. Özümüzü elə aparaq ki, bizə həmişə hörmətlə yanaşsınlar.

*- Bu mövsüm son 11 oyunda futbolçularınız 6 qırmızı vərəqə alıblar. Bu haqda nə deyə bilərsiniz?*

- Hər dəfə qırmızı vərəqə alanda öz fikirlərimi deyirəm. Komandamın yenə intizamlı olmasına çalışıram. Amma hamımız bilirik ki, futbol mübarizə oyunudur. Bu cür səviyyəli rəqiblərə ani məqamda uduzanda da sonu vərəqəyə gedib çıxır. Bu vərəqələrdən bəziləri şübhəli olub.

# Hakim haqsızlığı “Qarabağ”ın planlarını pozdu

***UEFA Çempionlar Liqasında V turun oyunları keçirilib. Ölkəmizi mötəbər turnirdə təmsil edən “Qarabağ” doğma azarkeşlər önündə İngiltərənin “Çelsi” klubunu sınağa çəkib. Bakı Olimpiya Stadionunda keçirilən oyunda hakim haqsızlığı qeydə alınan nəticəyə mənfi təsir edib.***

### UEFA Çempionlar Liqası

*C qrupu*

**V tur**

**“Qarabağ” (Azərbaycan) - “Çelsi” (İngiltərə) - 0:4**

**Qollar:** Hazard, 21 (pen.), Villian, 37; 85, Fabreqas, 73 (pen.).

**Qırmızı vərəqə:** Rəşad Sadıqov, 18.

**Hakimlər:** Manuel De Souza, Alvaro Meskuita, Rikardo Santos, Nuno Pereyra (hamısı Portuqaliya).

***22 noyabr. Bakı. Olimpiya Stadionu. 67 100 tamaşaçı.***

### “Evdən uzaqda, amma layiq olduğun yerdə”

Matçdan əvvəl azarkeşlər nəhəng xoreoqrafiya açıblar. Bakı Olimpiya Stadionunda keçirilən qarşılaşmada açılan xoreoqrafiyada böyük hərflərlə Qarabağ və Azərbaycan sözləri yazılıb. Bunu mərkəzi tribunada oturmuş azarkeşlərə verilən kartlar vasitəsilə ediblər.

Bundan başqa, klub rəhbərliyi ingiliscə mesaj verməyi də unutmayıb. Belə ki, xoreoqrafiyada “Far away from home, but where you belong” sözləri yazılıb. Yəni “Evdən uzaqda, amma layiq olduğun yerdə”.

Bu cümlə ilə dünyaya Ağdamın işğal altında olması, bu səbəbdən “Qarabağ”ın doğma yurdundan didərgin düşməsi mesajı verilib.

Qeyd edək ki, azarkeşlərimiz ilk dəfə olaraq belə böyük formada xoreoqrafiya ilə dünyaya mesaj göndəriblər.

### Portuqaliyalı baş hakimin qonaqlara simpatiyası

Matçın ilk dəqiqələrində “Qarabağ” ərazi üstünlüyünə malik idi. Hətta bir vəziyyətdə təmsilçimiz hesabı aça bilərdi. Əla qurulmuş hücum zamanı Miçelin qapıya vurduğu top dirəyə tuş gəlib. Bundan sonra baş verənləri baş hakimin “ayağına” yazmaq olar. Oyunun 18-ci dəqiqəsində hakimin şübhəli qərarı ilə kapitan Rəşad Sadıqov qırmızı vərəqə alaraq meydandan qovulub, ağdamlıların qapısına isə penalti təyin olunub. Hakimlərin tanınmış klublara “simpatiyası” bu məqamda da özünü biruzə verib. Halbuki “Çelsi” kimi nəhəng kluba belə “hakim hədiyyəsi” lazım deyil. Çünki İngiltərə təmsilçisinin gücü və nüfuzu bütün dünyaya bəllidir. Əslində, “Qarabağ”ın kapitanına qırmızı vərəqə verməmək də olardı. Çünki FİFA-nın tövsiyələrində də qeyd olunub ki, əgər hakim 11 metrlik cərimə zərbəsi təyin edirsə və zərərçəkən ciddi xəsarət almayıbsa, cəzalanan futbolçuya sarı vərəqə də vermək kifayətdir. Amma portuqaliyalı baş hakim qərarını dəyişməyərək, “Qarabağ”ın planlarının üstündən çarpaz xətt çəkib. Penalti zərbəsini isə Hazard dəqiq yerinə yetirib. Qoldan sonra hücumlarını davam etdirən qonaqlar hesab fərqini artırıblar. Bu dəfə Villian fərqlənib.

İkinci hissədə də ssenari dəyişməyib. Qonaqlar hücum edir, 10 nəfərlə qalmış “Qarabağ” isə ümidini əks-hücumlara bağlayıb. Oyunun 73-cü dəqiqəsində yenə baş hakim diqqət mərkəzinə gəlib. Qara Qarayevin Villianı çəkməsi hakimin gözündən yayınmayıb. Fabreqas fürsəti əldən verməyib. Sonuncu qolu isə yenə Villian vurub. Braziliyalı futbolçunun uzaqdan vurduğu top qarşısıalınmaz olub - 0:4.

Bu nəticədən sonra “Qarabağ” üçün son tur formallığa çevrilib və növbəti mərhələ şansları itib. Çünki “Atletiko” “Roma” klubunu məğlub etdiyi üçün Ağdam təmsilçisinin qrupun son pilləsində qərarlaşacağı dəqiqləşib.




### Şenol Günəşdən çempionumuza dəstək

“Qarabağ”ın matçını stadionda tanınmış simalar da izləyib. Onlar arasında “Beşiktaş”ın baş məşqçisi Şenol Günəş də olub.

Buna səbəb Bakı Olimpiya Stadionunun oyundan bir gün əvvəl gecə saatlarında “ağ-qara” rəngə bürünməsi və “Come to Beşiktaş” yazısı ilə Çempionlar Liqasında 1/8 final mərhələsinə vəsiqə qazanan İstanbul klubuna dəstək verməsidir. Şenol Günəş də bu jestə qarşılıq olaraq təşəkkür etmək üçün Bakıya gəlib. O, “Çelsi” ilə qarşılaşmada Azərbaycan çempionuna dəstək olub.

### İngiltərə mətbuatı: “Hakimdən ağılsız qərar”

“Qarabağ” - “Çelsi” matçında baş verən hakim haqsızlığına İngiltərə mətbuatı da biganə qalmayıb. Görüşün 18-ci dəqiqəsində portuqaliyalı hakim Manuel De Souzanın verdiyi penalti qərarı və Rəşad Sadıqova göstərdiyi qırmızı vərəqə geniş müzakirələrə səbəb olub.

Məşhur “The Sun” nəşri referinin şübhəli qərarını oxucularına “Ağılsız qərar” kimi təqdim edib. Portalda yer alan məqalədə sözügedən epizodda hakimin çox “yumşaq” penalti verdiyi və qırmızı vərəqənin çox ağır qərar olduğu qeyd edilib.

Maraqlıdır ki, bu qərar hətta “Çelsi” azarkeşlərinin də etirazına səbəb olub. Onlar sosial şəbəkələrdə bu cür “köməyə” ehtiyaclarının olmadığını bildiriblər.




## Antonio Konte: “Futbolçular üçün bu cür atmosferdə oynamaq xoşdur”

*- Matçı necə dəyərləndirərdiniz?*

- Komandamın oyunundan məmnunam. Növbəti mərhələyə vəsiqə qazandıq. “Atletiko” ilə görüşün həlledici olmasının qarşısını aldıq. Bu da mənə onlarla görüşdə rahat çıxmağa imkanı yaradacaq.

*- Qırmızı vərəqə və penalti qərarları haqda nə deyə bilərsiniz?*

- Mənə görə həmin vəziyyətlər haqda danışmaq çətindir. Çünki mən texniki zonada oluram və oradan məsafə uzaqdır. Gördüyümə əsasən, penaltinin olub-olmadığını deyə bilmərəm. Sadəcə, onu deyim ki, hakim öz işini görməli, heç bir komandanın tərəfində olmamalıdır.

*- Villianın çıxışından razı qaldınız?*

- Mən adətən komanda haqda danışmağa üstünlük verirəm. Meydana çıxan oyunçular özlərini yaxşı tərəfdən göstərə bildilər. Villianın 2 qol vurması özünəinam hissini bərpa etməsi üçün yaxşı haldır.

*- “Qarabağ” azarkeşlərinin xoreoqrafiyasından nə başa düşdünüz?*

- Futbolçular üçün bu cür atmosferdə oynamaq xoşdur. Hiss olunur ki, futbola böyük həvəs var. Futbol ölkənizdə inkişaf edir. Azarkeşlərə təşəkkür etmək lazımdır. Həm “Qarabağ”, həm də Azərbaycan futbolu üçün belə şeylər vacibdir. Eyni zamanda, öz azarkeşlərimizə də təşəkkür etmək istəyirəm.

*- Londondakı matçla müqayisədə “Qarabağ”ın oyununda hər hansı dəyişiklik hiss etdinizmi?*

- “Qarabağ” ilk oyunda da özünü yaxşı təşkil olunmuş komanda kimi göstərmişdi. Məşqçi işi görünür. “Qarabağ”ın yaxşı baş məşqçisi var. Komanda öz oyun tərzinə malikdir. Bu gün 10 nəfərlə qaldıqdan sonra da “Qarabağ” təşkilatlanmış oyun göstərdi. Buna görə həmkarıma təşəkkür edirəm.

*- “Atletiko”ya səfərdə qalib gəldikdən sonra çempionat matçında uduzmuşdunuz. Bu dəfə də eyni hal təkrarlana bilər?*

- İngiltərə Premyer Liqası çox çətin çempionatdır. 6 komanda çempionluq uğrunda oynayır. Şikayət etmək istəmirəm. Amma Londona çatmaq üçün 5 saat yarımlıq yol gedəcəyik. Bu isə futbolçuları yoracaq. Özümüzə “Liverpul”la matçda qeydə alına biləcək uğursuz nəticə üçün bəraət qazandırmaq istəmirəm. Amma bu məsələyə fikir verilməlidir.

# “Qara qartallar” lider kimi növbəti mərhələyə vəsiqə qazandı

## “Real” və PSJ klublarından isə böyükhesablı qələbə

Ötən həftə UEFA Çempionlar Liqasında V tura yekun vurulub. Avropanın 32 ən güclü komandası qitənin ən nüfuzlu klub turnirində mübarizəni davam etdirmək üçün növbəti oyunlarına çıxıblar. Bu görüşlər 1/8 finala yüksələcək komandaların sayının artması ilə nəticələnib.

E qrupunda növbəti mərhələyə vəsiqənin sahibləri son turda bəlli olacaq. Buna səbəb qrupun hər iki oyununda heç-heçənin qeydə alınmasıdır.

F qrupunda “Şaxtyor” 1/8 finala yüksəlmək şansını əldən verib. Ukrayna təmsilçisi “Napoli”yə 0:3 hesabı ilə məğlub olub və şansı son tura saxlayıb. Bunun üçün son turda doğma meydanda “Mançester Siti”yə uduzmamaq lazımdır.

G qrupunda “Beşiktaş” “Porto”ya uduzmayaraq 1-ci yerlə 1/8 finala yüksəlib. Digər vəsiqənin sahibinə isə son turda aydınlıq gələcək.

“Real” H qrupundan 1/8 finala vəsiqə qazanan 2-ci komanda olub. “Kral klubu”na bunun üçün APOEL səfərindən qələbə ilə dönmək kifayət edib.

İkinci oyun günündə bütün Azərbaycanın diqqəti “Qarabağ”a yönəlib. “Çelsi” klubu səfərdə çempionumuzu məğlub edərək, 1/8 finala yüksəlib. “Roma” isə “Atletiko”ya məğlub olaraq şansını son tura saxlayıb.

A qrupu çərçivəsində səfərdə “Bazel”ə uduzan “Mançester Yunayted” son turu gözləməli olub. İngilislər 1 xalla da qrupdan çıxmış olacaq.

B qrupunda PSJ və “Bavariya” klubları növbəti mərhələyə vəsiqəni özləri üçün təmin ediblər. “Seltik”lə “Anderlext” isə Avropa Liqasına vəsiqə uğrunda mübarizəni davam etdirəcək.

D qrupunda keçirilən “Yuventus” - “Barselona” görüşündə əldə olunan heç-heçə sayəsində katalonlar növbəti mərhələyə vəsiqə qazanıblar. Turin təmsilçisi isə son turu gözləməli olacaq.

### UEFA Çempionlar Liqası

*V tur*

**21 noyabr**

**E qrupu**

“Spartak” (Rusiya) - “Maribor” (Sloveniya) - 1:1

**Qollar:** Ze Luis, 82 - Mesanoviç, 90+2.

“Sevilya” (İspaniya) - “Liverpul” (İngiltərə) - 3:3

**Qollar:** Ben Yedder, 51; 60 (pen.), Pizarro, 90+2 - Firimino, 2; 30, Mane, 22.

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| 1. Liverpul | 5 | 2 | 3 | 0 | 16-6 | 9 |
| 2. Sevilya | 5 | 2 | 2 | 1 | 11-11 | 8 |
| 3. Spartak | 5 | 1 | 3 | 1 | 9-6 | 6 |
| 4. Maribor | 5 | 0 | 2 | 3 | 2-15 | 2 |

**F qrupu**

“Mançester Siti” (İngiltərə) - “Feyenoord” (Hollandiya) - 1:0

**Qol:** Sterlinq, 88.

“Napoli” (İtaliya) - “Şaxtyor” (Ukrayna) - 3:0

**Qollar:** İnsinye, 56, Zilinski, 81, Mertens, 83.

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| 1. Mançester S. | 5 | 5 | 0 | 0 | 13-3 | 15 |
| 2. Şaxtyor | 5 | 3 | 0 | 2 | 7-8 | 9 |
| 3. Napoli | 5 | 2 | 0 | 3 | 10-9 | 6 |
| 4. Feyenord | 5 | 0 | 0 | 5 | 3-13 | 0 |

**G qrupu**

“Beşiktaş” (Türkiyə) - “Porto” (Portuqaliya) - 1:1

**Qollar:** Talişka, 41 - Felipe, 29.

“Monako” (Fransa) - “Leypsiq” (Almaniya) - 1:4

**Qollar:** Falkao, 43 - Cemerson, 6, Verner, 9, 31, Keyta, 45+1.

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| 1. Beşiktaş | 5 | 3 | 2 | 0 | 9-4 | 11 |
| 2. Porto | 5 | 2 | 1 | 2 | 10-8 | 7 |
| 3. Leypziq | 5 | 2 | 1 | 2 | 9-9 | 7 |
| 4. Monako | 5 | 0 | 2 | 3 | 4-11 | 2 |

**H qrupu**

“Borussiya” (Dortmund, Almaniya) - “Tottenhem” (İngiltərə) - 1:2

**Qollar:** Obameyanq, 31 - Keyn, 49, Son, 76.

APOEL (Kipr) - “Real” (İspaniya) - 0:6

**Qollar:** Modriç, 23, Benzema, 39; 45+1, Naço, 41, Ronaldo, 49; 54.

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| 1. Tottenhem | 5 | 4 | 1 | 0 | 12-4 | 13 |
| 2. Real M. | 5 | 3 | 1 | 1 | 14-5 | 10 |
| 3. Borussiya D. | 5 | 0 | 2 | 3 | 5-10 | 2 |
| 4. APOEL | 5 | 0 | 2 | 3 | 2-14 | 2 |

**22 noyabr**

**A qrupu**

MOİK (Rusiya) - “Benfika” (Portuqaliya) - 2:0

**Qollar:** Şennikov, 13, Jardel, 56 (öz qapısına).




“Bazel” (İsveçrə) - “Mançester Yunayted” (İngiltərə) - 1:0

**Qol:** Lanq, 89.

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| 1. Mançester Y. | 5 | 4 | 0 | 1 | 10-2 | 12 |
| 2. Bazel | 5 | 3 | 0 | 2 | 9-5 | 9 |
| 3. MOİK | 5 | 3 | 0 | 2 | 7-8 | 9 |
| 4. Benfika | 5 | 0 | 0 | 5 | 1-12 | 0 |

**B qrupu**

PSJ (Fransa) - “Seltik” (Şotlandiya) - 7:1

**Qollar:** Neymar, 9; 22, Kavani, 28; 79, Mbappe, 35, Veratti, 75, Dani Alves, 80 - Dembele, 1.

“Anderlext” (Belçika) - “Bavariya” (Almaniya) - 1:2

**Qollar:** Hanni, 63 - Levandovski, 51, Tolisso, 77.

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| 1. PSJ | 5 | 5 | 0 | 0 | 24-1 | 15 |
| 2. Bavariya | 5 | 4 | 0 | 1 | 10-5 | 12 |
| 3. Seltik | 5 | 1 | 0 | 4 | 5-17 | 3 |
| 4. Anderlext | 5 | 0 | 0 | 5 | 1-17 | 0 |

**C qrupu**

“Atletiko” (İspaniya) - “Roma” (İtaliya) - 2:0

**Qollar:** Qrizman, 69, Qameyro, 85.

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| 1. Çelsi | 5 | 3 | 1 | 1 | 15-7 | 10 |
| 2. Roma | 5 | 2 | 2 | 1 | 8-6 | 8 |
| 3. Atletiko | 5 | 1 | 3 | 1 | 4-3 | 6 |
| 4. Qarabağ | 5 | 0 | 2 | 3 | 2-13 | 2 |

**D qrupu**

“Sportinq” (Portuqaliya) - “Olimpiakos” (Yunanıstan) - 3:1

**Qollar:** Bas Dost, 40; 66, Sezar, 43 - Ocuci-Ofoe, 86.

“Yuventus” (İtaliya) - “Barselona” (İspaniya) - 0:0

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| 1. Barselona | 5 | 3 | 2 | 0 | 7-1 | 11 |
| 2. Yuventus | 5 | 2 | 2 | 1 | 5-5 | 8 |
| 3. Sportinq | 5 | 2 | 1 | 2 | 8-7 | 7 |
| 4. Olimpiakos | 5 | 0 | 1 | 4 | 4-11 | 1 |

***Səhifəni hazırladı: Rahib Səmədov***

# DÜNYA idmanı



## Pilota 120 milyon funt sterlinq təklif edilib

"Mercedes" komandası əsas pilotu olan Lyuis Hamiltona 120 milyon funt sterlinq məbləğində üç illik yeni müqavilə təklif edib.

Təklifin reallaşacağı təqdirdə Hamilton Formula-1 yarışlarının ən yüksək məvacib alan pilotu Sebastian Vettel ilə eyni məbləğdə əməkhaqqı alacaq. L. Hamiltona yeni müqavilə Meksika Qran-Prisindən sonra təklif olunub. Təklif olunan məbləğin yüksək olması "Mercedes" komandası rəhbərliyinin ehtiyat etməsi ilə bağlıdır. Rəhbərlik pilotun əsas rəqiblərdən olan "Red Bull Racing" və ya "Ferrari" komandalarına keçə biləcəyindən narahatdır. Lyuis Hamiltonun "Mercedes" komandası ilə müqaviləsinin müddəti 2018-ci ilin sonunda başa çatır.



Xatırladaq ki, Lyuis Hamilton Meksika Qran-prisində bütün rəqiblərini qabaqlayaraq, Formula-1 üzrə 2017-ci il dünya çempionatının qalibi olub.

## "Milyard dollar qazanmaq istəyirəm"

Boks üzrə UFC versiyasının çempionu Konor Mak Qreqor 2018-ci ildə "Forbes" jurnalının nominasiyasında hər il ən bahalı idmançıların siyahısına liderlik etmək niyyətində olduğunu bildirib.

İrlandiya idmançısı deyib: "Ötən il "Forbes"in nominasiyasında Kriştianu Ronaldu birinci yerdə idi. Mən isə 34 milyon dollar gəlirlə 24-cü yerdə qərarlaşmışdım. Gələn il bu siyahıya Floyd Meyvezer başçılıq edə bilər, mən isə ikinci olacam. Kriştianu Ronaldu isə məndən sonra, yeni 3-cü yeri tutacaq. Düşünürəm ki, əlavə iki döyüşüm olsa, Floydu da ötüb keçəcəm. 2018-ci ildə dünyanın ən bahalı idmançısı olmaq, milyard dollar və hətta ondan artıq qazanmaq istəyirəm".

Xatırladaq ki, Mak Qreqor bu ilin avqust ayında Las-Veqas şəhərində dünya çempionu Floyd Meyvezerə qarşı döyüşüb. Döyüş irlandiyalı boksçunun texniki məğlubiyyəti ilə başa çatıb, amma o, karyerasında ən yüksək məbləğdə (100 milyon dollar) qonorar alıb.





## Yunan məşqçi öz qərarı ilə dünyanı heyrətləndirdi

Futbol üzrə Avstraliya yığma komandasının baş məşqçisi Anqelos Postekoqlu vəzifəsindən istefa verib. Bu barədə 52 yaşlı mütəxəssis Sidneydə keçirilən mətbuat konfransında məlumat verib. Xatırladaq ki, Postekoqlu yığmaya 2013-cü ilin oktyabrında baş məşqçi təyin olunub.

Avstraliya millisi onun rəhbərliyi altında Rusiyada keçiriləcək 2018-ci il Dünya çempionatına vəsiqə qazanıb. Komanda pley-off matçında Hondurası mübarizədən kənarlaşdırıb. Verilən son məlumata görə, onu bu vəzifədə hollandiyalı mütəxəssis Quus Hiddink əvəz etməyə namizəddir.



Günay Qasımxanlı (Azərbaycan)

*"Olimpiya dünyası" qəzetinin arxivindən*

***("Olimpiya dünyası" qəzetinin keçirdiyi I Bakı Beynəlxalq Karikatura Müsabiqəsindən)***

## Serena Uilyams ailə həyatı qurub

Dünya şöhrətli tennisçi Serena Uilyams ailə həyatı qurub. Onun həyat yoldaşı "Reddit" saytının yaradıcısıdır.

ABŞ-ın Yeni Orlean şəhərində təşkil olunan cütlüyün toy mərasimində bir çox məşhurlar iştirak ediblər. Gəlin toyda "Alexander McGueen" və "Versace", bəy isə "Giorgio Armani" brendindən istifadə edib. Foto hüququ yalnız "Vogue" jurnalına məxsus olub, qonaqlara toydan foto çəkməyə və paylaşmağa icazə verilməyib.

Qeyd edək ki, Serena Uilyams Sidney-2000, Pekin-2008 və London-2012 Olimpiya Oyunlarının çempionu, "Böyük dəbilqə" turniri üzrə fərdi yarışların 23 dəfə qalibidir.

## Buffon hələ formadadır

"Mövsümün sonunda "Yuventus"la UEFA Çempionlar Liqasının baş mükafatını əldə etməyincə, karyerama son qoymayacağam".

Bu sözləri Çempionlar Liqası çərçivəsində "Barselona" ilə oyun ərəfəsində "Yuventus"un qapıçısı Canluici Buffon deyib. Qapıçı İtaliyanın dünya çempionatının təsnifat mərhələsini keçə bilməməsindən çox təəssüfləndiyini deyib: "Mən formadayam və təqaüdə çıxmaqdan qorxmuram. Həyat mənim üçün maraqlıdır və futbolu buraxmaq qorxum yoxdur".

Canluici Buffon qapıçı karyerasını başa vurduqdan sonra baş məşqçi olmaq və ya hər hansı vəzifə tutmaq barədə düşünmür. O, Zenqa, Takkoni, Peruççi, Toldo, Palyuka, Markedcani kimi qapıçıların davamçısı olduğunu dilə gətirib.

## Viktorina

Ölkədə idman, Olimpiya Hərəkatının inkişafı və təbliğində özünəməxsus dəsti-xətti olan "Olimpiya dünyası" qəzeti fəaliyyətinin ilk günlərindən başlayaraq müxtəlif layihələr həyata keçirir. Bu layihələrdən biri də çoxsaylı oxucularımız arasında maraqlı viktorinaların təşkilidir. Məlumat üçün bildiririk ki, viktorinaya hər ayın sonunda yekun vurulacaq, qaliblər redaksiyaya dəvət olunaraq müxtəlif hədiyyələrlə mükafatlandırılacaq və "Olimpiya dünyası" qəzetinə 1 illik pulsuz abunə olunacaqlar.



Diqqət...Diqqət.

Oxucularımıza hər dəfə 5 sual təqdim olunacaq.

Hər doğru cavab 1 balla qiymətləndiriləcək. Cavabları aşağıda göstərilən ünvana və ya elektron poçta göndərə bilərsiniz.

**Ünvan:** *Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a (Metronun "Gənclik" stansiyasının yaxınlığında)*

**E-mail:** olimpiya_dunyasi@mail.ru

*Əlaqə telefonları: (012) 564-74-19; 564-90-49; 564-90-54*

## Klub prezidenti Nitsa aeroprotunda həbs olunub

Rusiyanın "Anji" klubunun keçmiş sahibi Süleyman Kərimov həbs olunub. "RİA-Novosti"yə istinadən yaydığı xəbərə görə, 51 yaşlı siyasətçi Nitsada Fransa polisi tərəfindən saxlanılıb. "Süleyman Kərimov Nitsa aeroportunda saxlanılıb. Onu polis bölməsinə aparıblar. Konsulluğun əməkdaşları, əvvəlcə, hava limanına yollanıblar, daha sonra isə polis bölməsində Kərimovla görüşməyə nail olublar. Biz daim yerli hakimiyyətlə əlaqədəyik və onun azadlığa buraxılması üçün əlimizdən gələni edirik" - deyə Kərimovun nümayəndəsi bildirib.



Qeyd edək ki, S. Kərimov 2016-cı ilin dekabrında yerini Osman Kadiyevə təhvil verməklə "Anji"dən ayrılıb.

Əlavə edək ki, "Forbes"in son siyahısında Süleyman Kərimov rusiyalı milyarderlər arasında 21-ci pillədə qərarlaşıb.

## 49 yaşında "əlvida" dedi

Çexiya tennisinin keçmiş ulduzu Yana Novotnı vəfat edib. 49 yaşlı idmançı uzun sürən xəstəlikdən sonra dünyasını dəyişib. Xeyli vaxtdır ki, xərçəng xəstəliyindən əziyyət çəkən Yana Nyu-York şəhərindəki klinikaların birində vəfat edib.

2005-ci ildə adı Tennisin Şərəf Zalına daxil edilən çexiyalı ulduz karyerası ərzində Qadın Tennis Assosiasiyasının (WTA) turnirlərində 100 mükafat qazanıb. Bunlardan çoxu (76) cütlüklərin mübarizəsində əldə edilib. Bundan başqa, Yana Novotnı 12 dəfə cütlüklərin, 4 dəfə qarışıq cütlüklərin yarışında "Böyük Dəbilqə" turnirinin qalibi adına yiyələnib. Çexiyalı karyerasının ən böyük uğurunu isə 1998-ci ildə fərdi yarışda Uimbldon turnirini qazanmaqla əldə edib.

| Suallar | Cavablar |
|---|---|
| **1. Olimpiya kəndindən ilk dəfə hansı olimpiadada istifadə edilib?** | |
| **2. Beynəlxalq Olimpiya Komitəsi nə vaxt təsis edilib?** | |
| **3. BMT-nin Olimpiya barışığı ilə bağlı qərarı neçənci ildə qəbul olunub?** | |
| **4. Şəkildəki idman növü necə adlanır?**  | |
| **5. Futbol üzrə dünya çempionatında çıxış edən ilk Afrika əsilli futbolçu kimdir?** | |

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı və cümə günləri çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-90-54; 564-74-19